Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Pəşə Təhsil Mərkəzi

Azərbaycan Respublikası Təhsil Nazirliyi

İKT

Bakı 2019

MÜNDƏRİCAT

Modul 1: Photoshop 4
1. Nəfis Patbingsu (qırmızı lobya, buz, su) hazırlamaq 7
2. Gözəl foto dizayn etmək 19
3. Gözəl buz qəlibi yaratmaq 31
4. Maraqlı slayd filmi təşkil etmək 47
5. Smart ana səhifəni dizayn etmək 63

Modul 2: Illustrator 88
1. Əyləncəli simvol markası yaratmaq 91
2. Simvolu istifadə edərək koster yaratmaq 102
3. Sadə plakat hazırlamaq (küçə reklamı) 111
4. 3D obrazı yaratmaq (əjdaha) 122
5. Gündəlik plan yaratmaq 137
6. Kraliça gülü loqosunun hazırlanması 149
7. Qalın xətt istifadə edərək loqonun hazırlanması 166
8. Kiçik nöqtə ilə nöqtə loqosu növünün hazırlanması 175
9. Vaxtı göstərmək üçün yarlığın dizayn olunması 188
10. Canlı tekstura ilə bannerin yaradılması 200

Modul 3: Premiere 217
1. Hərəkətli şəkil effekti animasiyası düzəltmək 220
2. Qeyri-şəffaflığı dəyişmək üçün animasiya yaratmaq 236
3. Xüsusi rəng standartlarını tətbiq etmək 246
4. Başlıqlara effektlər tətbiq etmək 254
5. VR şəklini redaktə etmək 263
a. VR şəklinin redaktə olunması 265
b. VR şəklinin çıxarılması 270
c. VR təsvirinin YouTube-a yüklənməsi 274
d. Premiere Pro ilə VR şəklinin yüklənməsi 281
e. VR şəklini səs yoxlaması ilə əlaqələndirmək 286

Modul 4: HTML - JAVASCRIPT 289
1. Müxtəlif qutular hazırlamaq 292
2. CSS ilə menyu yaratmaq 303
3. HTML ilə əsas Menyuları düzəltmək 315
4. Faydalı məlumat lövhəsi yaratmaq 322
5. Özünü təqdimat üçün veb səhifə tərtib etmək 335
6. Pop-up pəncərəsini göstərmək 342
7. Rəqəmi yoxlamaq 348
8. E-mail Formasını yoxlamaq 352
9. İngilis simvolu və rəqəmini müəyyənləşdirmək 358
10. Qadağan olunmuş sözü axtarmaq 364

Modul 5: UX/UI 367
1. Kamera tətbiqləri üçün ikon dizayn etmək 370
2. Kamera çəkilişi üçün səhifəni dizayn etmək 386

Modul 6: SQL (Oracle üçün) 406
1. JOIN qaydalarını tərtib etmək 409
2. ERD əsasları 425
3. Cədvəl, Və (Dəyər obyekti) və məlumat toplusu yaratmaq 434

Modul 7: PHP 444
1. PHP-nin istifadəsinə başlamaq 447
2. PHP qeydiyyat proqramını hazırlamaq 475

Modul 8: Proqramlaşdırma dili (Java) 499
1. Bu günün şans oyununu yaratmaq 502
2. Daş, kağız və qayçı oyununu düzəltmək 512
3. Vurma cədvəli yaratmaq 524

Modul 9: Sosial şəbəkə xidməti (Bloq) 538
1. İngilis dilində bloq yaratmaq 540
2. Yahoo saytında bloq yaratmaq 546
3. Twitter yaratmaq 551
4. Facebook yaratmaq 560

Sərişdə əsaslı modul

İKT

Photoshop



Sənaye və İnnovasiyalar üzrə
Bakı Dövlət Peşə Təhsil Mərkəzi

Ön söz

Şəkil redaktə proqram təminatı olan Photoshop Adobe Systems Inc tərəfindən yaradılıb və inkişaf etdirilib. Photoshop şəkil redaktə proqram təminatında liderlərdən biri hesab olunur. Proqram təminatı dijital şəkillərdə manipulyasiya, kəsimə, ölçünün yenidən dəyişdirilməsinə və rəng düzəlişlərinə imkan verir. Proqram təminatı əsasən peşəkar fotoqraflar və qrafik dizaynerlər arasında məşhurdur.

Daha detallı izah etsək Adobe Photoshop MacOS və Windows üçün Adobe Systems tərəfindən hazırlanmış və nəşr olunan raster qrafik redaktorudur. Photoshop 1988-ci ildə Thomas və John Knoll tərəfindən yaradılıb. O vaxtdan etibarən Photoshop raster qrafik redaktəsində de-fakto sənaye standartı hesab olunur. Adobe şirkəti "photoshop an image", "photoshopping" və "photoshop contest" kimi ifadələri qəbul etmədiyinə görə photoshop sözünün özü ümumi bir marka halına gəldi. O, raster şəkilləri bir neçə qatda yarada və redaktə edə bilir, eyni zamanda RGB, CMYK, CIELAB, spot rəngləri və duoton da daxil olmaqla bir neçə rəng modellerini dəstəkləyir.

Photoshop qrafik fayl formatları üçün böyük dəstək göstərir. Həmçinin özünün yuxarıda göstərilən xüsusiyyətləri dəstəkləyən PSD və PSB kimi fayl formatlarını da istifadə edir. Raster qrafiklərinə əlavə olaraq onun mətnləri, vektor qrafikləri, 3D qrafikləri və videoları redaktə etmək qabiliyyətləri limitlidir. Photoshop-un xüsusiyyət dəstəyi Photoshop plugins tərəfindən genişləndirilə bilər. Proqramlar onun içərisində fəaliyyət göstərərək Photoshop-da azad şəkildə yaradılır və yeni xüsusiyyətlər təklif edir.

Photoshop-un adlandırma sxemi əvvəlcə versiya nömrələrinə əsaslanırdı. Lakin 2002-ci ildə Creative Suite markasının tətbiqi ilə əlaqədar olaraq Photoshop-un hər yeni versiyası "CS" üstəgəl nömrə ilə müəyyənləşdirilməyə başladı. Misal üçün, Photoshop-un 8-ci əsas versiyası Photoshop CS və 9-cu əsas versiyası CS2 idi. Photoshop CS3 ilə CS6 arası, həmçinin iki müxtəlif buraxılışda yayıldı: standart və genişlənmiş. 2013-cü ilin iyun ayında Creative Cloud markasının təqdimatı ilə Photoshop-un lisenziyalaşdıra proqramı "xidmət icarə modeli" kimi proqram təminatına dəyişdirildi və "CS" suffiksləri "CC" ilə əvəz olundu. Tarixən Photoshop "Adobe ImageReady", "Adobe Fireworks", "Adobe Bridge", "Adobe Device Central and Adobe Camera RAW" kimi əlavə proqram təminatı ilə bağlanırdı. Photoshop ilə yanaşı Adobe, həmçinin "Photoshop Elements", "Photoshop Lightroom", "Photoshop Express", "Photoshop Fix", "Photoshop Sketch and Photoshop Mix"-i də yaradıb, inkişaf etdirir. Adobe, eyni zamanda 2019-cu ildə iPad üçün Photoshop-un tam versiyasını yaratmağı planlayır. [6] Kollektiv olaraq bu proqramlar "The Adobe Photoshop family" adı altında brendləşib. Bu faktiki olaraq lisenziyalaşdırılmış proqram təminatıdır.

Yekun olaraq mən çoxsaylı mənbələrə, xüsusilə YouTube, Yahoo, Wikipedia, "www.hrdbank.net" və Google saytlarına təşəkkür edirəm. Onlar mənə texniki təcrübə modullu dərsliyin hazırlanmasında köməklik etdilər.

YUN, Hyung Soon, IKT üzrə Texniki Ekspert

1. Nəfis Patbingsu (qırmızı lobya, buz, su) hazırlamaq

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*

1. Photoshop yaratma alətinin komponentlərini izah edəcək.
2. Müxtəlif alətləri istifadə edərək nəfis Patbingsu hazırlamağı bacaracaq.

Təcrübə materialları:

1. Noutbuk/Stolüstü kompüter
2. Mənbə faylı
3. Media tədrisə dəstək vasitələri

Avadanlıqlar və alətlər:

1. Kompüter və periferiyalar
2. Photoshop proqramı
3. Dərslik & Dizayn məlumat kitabı
4. Proyektor

Mövzu ilə əlaqəli biliklər

1. Photoshop proqramının ekran tərkibi



Şəkil 1-1: Ekran tərkibi

2. Qat (Layer)

1) Qatlar panelində (Windows>Layers) yuxarı qatdan arxa fonun aşağı qatına qədər bütün qatlar şəkil kimi sıralanır. Əgər özəl iş mühitində mütəxəssis olaraq işləyirsinizsə qatlar panelini çöl hissəyə sürüyüb digər panellərlə etiketləyə bilərsiniz.

2) İşlədiyiniz aktiv qat asan identifikasiya üçün işarələnir. Bir şəkil üzərində işlədikdə dəyişikliklər və düzəlişlərin düzgün qatda nümayiş olunduğundan əmin olmaq üçün aktiv qatı yoxlayın. Misal üçün, siz əmri seçirsinizsə və heç nə görünmürsə düzgün qata baxdığınızdan əmin olmaq üçün yoxlayın.

3) Paneldə ikondan istifadə etdikdə qatı yaratmaq, əlaqələndirmək, kilidləmək və silmək kimi bir çox tapşırığı yerinə yetirə bilərsiniz. Bəzi istisnalarla dəyişikliklər yalnız seçilmiş və ya aktiv olan qata təsir edir.



Şəkil 1-2: Qat

3. Seçim aləti

1) Seçim - sizin təyin etdiyiniz şəkil sahəsidir. Siz seçimi yaratdıqda sahə redaktə oluna bilir (Misal üçün, siz şəkilin bir hissəsini qalan hissəyə təsir etmədən işıqlandıra bilərsiniz). Seçimi ya seçim aləti, ya da seçim əmri ilə etmək mümkündür. Gizlədə biləcəyiniz seçim sərhədi həmin seçimi əhatə edir. Siz seçim sərhədi içərisində pikselləri dəyişə, kopyalaya və ya silə bilərsiniz, amma seçim xaricindəki sahələrə seçməni götürənədək toxuna bilməzsiniz.

2) Adobe Photoshop elementləri müxtəlif növ seçimlər üçün seçim alətini təmin edir.

3) Seçim aləti parametrləri:

1. Elliptical Marquee (Ellipsşəkilli sətir seçmə) aləti dairəvi və ellipsşəkilli sahələri seçir.

2. Magic Wand (Sehirli çubuq aləti) bir klik ilə oxşar rənglərin sahəsini seçə bilir.

3. Daha çətin seçimlər Lasso (kəmənd aləti) ilə edilə bilər. Siz seçimin kənarlarını kənar düzləşdirmə aləti ilə tənzimləyə bilərsiniz.



Rectangular and Elliptical Marquee tool options

A. Rectangular Marquee tool **B.** Elliptical Marquee tool **C.** New selection **D.** Add to selection **E.** Subtract from selection **F.** Intersect with selection

Şəkil 1-3: Düzbucaqlı və ellipsşəkilli Marquee aləti parametrləri

4. Köçürmə aləti (Move tool)

1) Köçürmə aləti sizə şəkildə piksel seçimini kəsib başqa yerə sürüməyə imkan verir. Siz həmçinin bu aləti şəkillər arasında sseçımləri köçürmək və kopyalamaq üçün Photoshop elementlərində, eyni zamanda sseçımləri dəstəkləyən digər tətbiqlərdə də istifadə edə bilərsiniz.

1. Redaktə iş sahəsində seçim aləti ilə seçimi edin və alət qutusundan köçürmək alətini kliklə-yin.

2. Seçimlər sətrindən köçürmə alətinin parametrlərini dəyişin.

3. İşarəedicini seçim haşiyəsinin içərisinə köçürün və seçimi yeni vəziyyətə gətirin. Əgər siz birdən çox sahəni seçmiş olsanız seçdiyiniz bütün piksellər sürüdüyünüz kimi qalacaq.

2) Köçürmə aləti parametrləri:

Şəkil 1-4: Köçürmə aləti parametrlər sətri

1. Avtoseçim qatı (Auto Select Layer)

Hal-hazırda seçilmiş qatın yerinə köçürmə alətinin kursorunun aşağısında pikselləri olan ən üst qatı seçir.

2. Sərhədləyici qutunun göstərilməsi (Show Bounding Box)

Şəkildə və ya seçilmiş qatın ətrafında sərhədləyici qutunu nümayiş etdirir (əgər şəkildə heç bir aktiv seçim yoxdursa). Tərəflərdə və künclərdə qutular sizə qatı və ya seçimi yenidən ölçüləndirməyə imkan verir.

※ Qeyd:

Sərhəd qutusu arxa fon qatı üçün görünməz olur.

3. Rollover (Çevrilmə) üzərində işarələrin göstərilməsi

Siçan şəkilin üstünə gəldikdə qatlar tək-tək vurğulanır. Seçmək və köçürmək üçün işarələnmiş qata klik edin. Seçilmiş qatlar rollover-də vurğulanmır.

4. Menyunun yerləşdirilməsi (To arrange menu)

Seçilmiş qatı digər qatların qarşısına, arasına və ya arxasına köçürün. Seçimlərə “Bring To Front”, “Bring Forward”, “Send Backward” və “Send To Back” daxildir. Yerləşdirmək üçün qatı seçin və daha sonra yerləşdirmək menyusundan bir element seçin.

5. Menyunun düzülməsi (To align menu)

Seçilmiş qatları düzür. Seçimlərə “Top Edges”, “Vertical Centers”, “Bottom Edges”, “Left Edges”, “Horizontal Centers” və “Right Edges” (yuxarı kənarlar, şaquli mərkəzlər, aşağı kənarlar, üfüqi mərkəzlər və sağ kənarlar) daxildir. Seçimlər arasında birdən çox qat eyni zamanda sıralana bilər. Düzmək üçün qatı seçin, şhift düyməsini basılı saxlayıb digər qatı seçin və sonra düzmək menyusundan bir element seçin.

6. Menyunun təsnif edilməsi (To distribute menu)

Seçilən qatları bir-birindən ayırır. Seçimlərə yuxarı künclər, şaquli mərkəzlər, aşağı künclər, sol künclər, üfüqi mərkəzlər və sağ künclər daxildir. Birdən çox qat eyni anda mövcud ola bilər. Qatları bir-birindən ayırmaq üçün bir qat seçin. Shift düyməsini basılı saxlayaraq digər qatları seçin və menyudan bir element seçin.

5. Möhür aləti (Stamp tool)



Şəkil 1-5: Kopyalama möhür aləti

1) Kopyalama möhür aləti şəkilin bir hissəsini digər hissəsi üzərində və ya eyni rəng rejimi olan hər hansı sənədin digər hissəsi üzərində çəkir. Siz, həmçinin hansısa qatın bir hissəsini digər qat üzərində çəkə bilərsiniz. Kopyalama möhür aləti obyektlərin kopyasını çıxarmaq və şəkildə nöqsanı silmək üçün Faydalıdır.

2) Siz, həmçinin kopyalama möhür alətini videoda və ya animasiya çərçivəsində məzmunu rəngləmək üçün də istifadə edə bilərsiniz.

3) Kopyalama möhür alətini istifadə etmək üçün pikselləri kopyalamaq istədiyiniz sahədə bir nümunə nöqtəsi təyin edin və digər sahəni boyayın. Boyamanı dayandırdığınız və davam etdiyiniz zaman düzüm parametrini seçin. İlkin nümunə nöqtəsindən boyamağa başlamaq üçün neçə dəfə boyamanı dayandırdığınız və davam etdiyinizdən asılı olmayaraq düzüm seçimini ləğv edin.

4) Kopyalama möhür aləti üçün sahə ölçüsünə nəzarət edə bilən istənilən növ fırça istifadə edə bilərsiniz. Həmçinin rəngləmə tətbiq olunan sahəyə qeyri-şəffaflıq və axım parametrlərini tətbiq edə bilərsiniz.

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Şagirdin masasını təmiz saxlayın.
2. Kompüterin enerji təchizatına və periferiyalara toxunmayın.
3. Dərsdən sonra kompüterə bağlı olan bütün naqilləri cərəyandan ayırın.

Təcrübə mərhələləri

1. Photoshop-da iş mühitinin əvvəlcədən hazırlanması

1.1 File>New

1. Başlıq: Patbingsu
2. Şəkil ölçüsü:
 - En: 18sm
 - Hündürlük: 18sm
3. Dəqiqlik: 300 pixel/inch
4. Rəng rejimi: RGB color
5. Məzmun: Ağ
6. Arxa fonu çəkmək



Şəkil 1-6: İş mühitinin hazırlanması



2. Arxa fonun çəkilməsi

2.1 Arxa fona qradientin tətbiq olunması

1. Ön fon rənginə klik edin.
2. Rəng seçimi pəncərəsində aşağıdakıları daxil edin:
 - C 2, M 37, Y 100, K 0
3.[OK] düyməsini klik edin.



Şəkil 1-8: Ön fonun dəyərlərinin tənzimlənməsi

2.2 Arxa fon qatına qradientin tətbiq olunması

1. Qradient alətinə klik edin.
2. Şhift düyməsini basılı saxlayaraq siçanı lövhənin aşağısından yuxarısına doğru sürüyün.
3. Arxa fon qatına qradienti tətbiq edin.



Şəkil 1-9: Ön fon qatının qradienti

3. Patbingsu (Buzlu su) fincanının seçilməsi

3.1 Buzlu su materialını hazırlamaq üçün "Patbingsu mənbəyi" faylını açın.

1. Sehirli çubuq alətini seçin.
2. Parametr sətrində tolerantlığı "20" edin.
3. Asan seçilməsi üçün buzlu su fincanının kənarlarını sadə rəng edin.



Şəkil 1-10: Siçanı sürümək

3.2 Buzlu su fincanının seçilmiş sahəsini böyüdün.

1. Select>Modify ilə böyütmək pəncərəsini açın.
2. "4 piksel"i daxil edin.
3. [OK] düyməsini klik edin.
 - Beləliklə, buzlu su fincanının kənar xətti seçilir.
4. Aktiv seçim yerində Select>Inverse ilə seçilmiş sahəni tərsinə çevirin.



Şəkil 1-11: Qradientin yekunlaşdırılması

3.3 Buzlu su fincanının seçilmiş kənar xətlərini və ya konturlarını zənginləşdirin.

1. Select>Modify
2. Feather alt menyusunu klik edin.
3. [Feather] dialoq qutunu açın.
 - Feather Radiusuna "2 piksel"i daxil edin.
4. [OK] düyməsini klik edin.

※ İş pəncərəsinə seçilmiş şəkilin köçürülməsi

- Obyekti kopyalayın və iş pəncərəsinə



Şəkil 1-12: Alt menyunun böyüdülməsi

yapışdırın.
- [Move] aləti ilə seçilmiş sahəni klik edin və onu iş pəncərəsinə sürüyün.

4. Jelenin ehtiyatla seçilməsi

4.1 Mənbə faylından jeleləri fincanda buz üzərinə qoyun.

1. Lasso (kəmənd) alətini seçin.
- Jelenin istədiyiniz hissəsindən bir azını klik edin və sürüyün.
2. [+ Şhift] ilə dəyişiklik edin.
- Əgər jele seçimində eyni vaxtda böyük yük olduqda dayandırmaq istədiyiniz yerdə siçanı iki dəfə klik edin.
- Bu nöqtədə seçim sahəsi qurulur.

4.2 Seçim sahəsini dəyişdirin və redaktə edin.

1. Sizin seçməli olduğunuz sahə seçmək istədiyiniz sahədən kiçikdirsə Lasso alətini istifadə edərək sahəni əlavə edin.
- Seçmə sahəsində parametr sətrində [Add to Selection] düyməsini istifadə edin.
- [Shift] düyməsini basılı saxlayın.
2. Sahəni çıxarmaq istədikdə parametrlər sətrində Lasso alətini sürüyərək seçilmiş sahəni çıxarın.
- Seçim sahəsində parametr sətrinin seçimdən çıxarılması.
- [Alt (option)] düyməsini basılı tutun.

4.3 Jelelərə Feather dəyərini tətbiq edərək buz üzərinə qoyun.

1. Obyektin ölçüsünü və istiqamətini tənzimləmək üçün Edit>Free Transform qısaldılması olan [Ctrl (Command) + T] qısayol düyməsini klik edin.
- [Bounding Box] ekranda meydana çıxır.



Şəkil 1-13: Alt menyunun tərsinə çevrilməsi



Şəkil 1-14: Feather radiusu



Şəkil 1-15: Qara, qırmızı və açıq yaşıl jelenin

Şəkil 1-16: Çöl üzümlərinin seçilməsi

2. Əyri ox işarəsini sürüyərək obyekti fırladın və ölçüsünü tənzimləyin.
 - Siçan [Bounding Box]-un kənarına yaxın gəldikdə əyri ox işarəsi meydana çıxır.
3. Alt düyməsini basılı saxlayaraq, seçilmiş jeleni sürüyərək obyekti kopyalayın.
 - Buzun üzərində iki parça jelenin yaxşı görünməsini təmin edin.
 - Eyni qaydada digər jeleləri buz üzərinə qoyun.

Şəkil 1-17: Kopyalamaq və yapışdırmaq

5. Meyvələri buzlu suyun üzərinə qoyulması
5.1 Seçim sahəsini düzgün şəkildə təyin etmək üçün [Quick Mask Mode]-u iki dəfə klik edin.
1. İş şəkli ilə tanış olmaq üçün sürətli maska rejimini qurun.
 - Bu, rəng tətbiq etmə sahəsinin maska sahəsinə gəldiyi sahədir.
 - Bu, rəng tətbiq etmə sahəsinin seçim sahələrinə gəldiyi sahələrdir.
2. Kivini seçin.
 - [Quick Mask Areas]-da [Selected Areas]-i təyin edin, çünki Patbingsu şəkili xaric digər sahə kivini seçmək üçün çox genişdir.
 - Şəkilin bir-birindən fərqlənməsi üçün rəngi müəyyən edin.



Şəkil 1-18: Sürətli maska rejimi

5.2 Pozan aləti ilə seçiləcək kivi sahəsini boyayın.
1. Boyama sahəsinin ölçüsünə uyğun olaraq fırça ölçüsünü tənzimləyin.
2. Seçilmiş sahəni daha dəqiq etmək üçün [Ctrl (Command) + "+"]-ı klik edin.
3. Görünməyən halda [Space Bar] düyməsini basaraq şəkili sürüyün və yerini dəyişin.

5.3 Lazımsız sahəni silin. (Şəkil 1-19)
1. Dəyişiklik üçün [Color Transform Button (X)] düyməsinə klik edin.



Şəkil 1-19: Kivinin çəkilməsi və silinməsi

- Ön fon rəngini qara rəngə dəyişin.
- Siçanı sürüdükdə lazımsız sahələr silinir.

2. Daha çox seçim üçün alternativ olaraq [Standard mode] və [Quick Mask mode]-u yoxlayın.

5.4 Hamar olmağı üçün şəkilin kənarlarını düzəldin. (Şəkil 1-20)

1. Kivini seçdikdən sonra:
- Select>Feather
- Dəyər: 2
- [OK] düyməsini klik edin.

2. Kivini seçdikdə onu iş pəncərəsinə sürüyün.
- İlk olaraq kivi şəklini seçin.
- İş pəncərəsinə yeni şəkil əlavə etdikdə onu, eyni zamanda kopyalayın.

3. Kivi şəklinin ölçüsünü və istiqamətini tənzimləyin.
- [Ctrl (Command) + T] düyməsini istifadə edin.



Şəkil 1-20: Feather funksiyası

5.5 (Şəkil 1-22)-də olduğu kimi meyvə hissələrini və portağalı buz suyu üzərində qoymaq üçün prosesi təkrarlayın.

1. PAT-ı kopyalayın. (Qırmızı lobya)



Şəkil 1-21: Feather funksiyası

6.1 [Patbingsu] faylından PAT-ı kopyalayın.

1. [Stamp] tool>Close stamp
2. Parametrlər sətrindən fırçanın müvafiq ölçüsünü seçin.
3. [Alt (option)] düyməsini basılı saxlayaraq əsas nöqtəyə klik edin.

6.2 İki fərqli iş pəncərəsi yaradın.

1. İş pəncərəsinə yeni bir qat əlavə edin və bu qat buzlu su fincanının üzərində yerləşəcək.
2. Mənbə pəncərəsinin üstəgəl işarəsinə baxarkən (+) siçanı sürümək üçün kopyalayın.

Şəkil 1-22: Buzlu suyun üzərinə meyvələrin qoyulması

3. Davamlı iş üçün kopyalamağı dayandırdıqda kopya etmək üçün seçimlər pəncərəsində [Align] seçimini aktivləşdirin.

7. Patbingsu fincanına dondurma qoymaq

7.1 Yekun olaraq dondurmanı fincanın mərkəzinə qoyun.

1. [Magnetic Lasso] alətini seçin.
2. Dondurma şəklini rəng sərhədinin başlanğıc nöqtəsini klik etmək üçün seçin.
3. Siçanı şəkilin sərhədləri boyunca hərəkət etdirin, beləliklə kənar sərhədlər avtomatik olaraq seçiləcək.

7.2 Magnetic Lasso aləti [o] işarəsini göstərdikdə siçanı klik edərək seçilmiş sahələri tamamlayın.

1. Əgər hər hansı bir səhv olarsa, [Delete] düyməsini basın. Beləliklə əsas nöqtəni bir-bir silin.
2. Dondurmanı rəng sərhədinin başlanğıc nöqtəsini klik etmək üçün seçin.
3. İz başlanğıc nöqtəsindən bitmə nöqtəsinə gəldikdə şəkilin sərhədi boyunca siçanı hərəkət etdirin. Beləliklə, sərhəd avtomatik olaraq seçiləcək.

7.3 Son olaraq dondurmanı "Patbingsu source" pəncərəsində sürüyərək iş pəncərəsinə köçürün. Ölçünü Edit>Transform ilə tənzimlədikdən sonra dondurmanı fincanın mərkəzinə köçürün.

Şəkil 1-23: Möhürləmə aləti ilə kopyalamaq



Şəkil 1-24: Rənglər arasında sərhəd nöqtəsi

Şəkil 1-25: Tamamlanmış Patbingsu

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Photoshop-un komponentlərini düzgün şəkildə izah etdi? 2. Müxtəlif alətlərdən istifadə edərək nəfis Patbingsu hazırladı? 3. Verilmiş şərtlərə uyğun olaraq arxa fon rəngini tərtib etdi? 4. Müvafiq istifadə üçün seçim alətini düzgün şəkildə tətbiq etdi? 5. İş prosesində Lasso alətinin istifadəsini tətbiq etdi? 6. Əmr kimi qısa yol düyməsini istifadə etdi? 7. İş vəziyyətinə görə pozan alətini istifadə etdi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

2. Gözəl foto dizayn etmək

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Qatlar və kanalların funksiyalarını dəqiq şəkildə izah edəcək.
2. Bir təsvirdə çoxlu şəkilləri düzgün şəkildə dizayn etməyi bacaracaq.

Təcrübə materialları:
1. Noutbuk/Stolüstü kompüter
2. Mənbə faylı
3. Media tədrisə dəstək vasitələri

Avadanlıqlar və alətlər:
1. Kompüter və periferiyalar
2. Photoshop proqramı
3. Dərslik & Dizayn məlumat kitabı
4. Proyektor

Mövzu ilə əlaqəli biliklər

1. Qat maskası (Layer mask)

1. Qat maskası - qatın, qrupun və tənzimləmə qatının görüşünə nəzarət edir. Qat maskası bütövlükdə ağ olduqda qat tamamilə görünən olur. Qat maskası bütövlükdə qara olduqda isə qat tamamilə görünməz olur.

2. Siz müvafiq sahəni qaraya boyayaraq qatın bir hissəsini görünməz etmək üçün seçim edə bilərsiniz. Siz fırça aləti, kopya möhür aləti, qradient aləti və digər seçimlər də daxil olmaqla alətlərin çoxunu alətlər panelində istifadə edə bilərsiniz.

3. Misal üçün, əgər siz arxa fondan süjeti kəsmək istəyirsinizsə süjetin ətrafını seçin və bu seçimi qat maskası kimi yükləyin. Süjet arxa fonda görünəcək və arxa fon görünməz olacaq.

2. Qat maskasının əlavə olunması

1. Photoshop ediləcək şəkli açın.

2. Seçim (Select) menyusunu və Ləğv etmək (Deselect) əmrini seçərək şəkilin istədiyiniz hissəsini ləğv edin.

3. Qatı seçin və ona klik edin.

4. Qat maskasını seçin.

5. Hamısını gizlət (Hide all) əmrini klik edin.

Şəkil 2-1: Qat maskası şəkili

• Hamısını göstərmək: Ağ rəngdə boş qat maskası yaradıldı və bütün şəkil meydana çıxdı. Qara ilə rənglənmiş hissə gizlədildi.

• Hamısını gizlətmək: Qara rəngdə boş qat maskası yaradıldı və bütün şəkil gizlədildi.

• Seçimi göstərmək: Şəkil seçim sahəsi əsasında seçim sahəsinin xarici hissəsini gizlədən qat maskası yaradıldı.

• Seçimi gizlətmək: Şəkil seçim sahəsində seçim sahəsinin daxili hissəsini gizlədən qat maskası yaradıldı.

■ Qeyd

A. Qat maskasının əlavə edilməsi

Siz qat maskasını əlavə etdikdə bütün qatları gizlədə və ya göstərə bilərsiniz və ya maskanı seçimə, yaxud şəffaflığa əsaslandıra bilərsiniz. Daha sonra maskanın üzərini rəngləyərək qatın hissələrini gizlədə, altındakı hissələri meydana çıxara bilərsiniz.

B. Bütün qatı göstərmək və ya gizlətmək üçün maskanın əlavə olunması

1. Şəkilin heç bir hissəsinin seçilmədiyindən əmin olun. Select>Deselect-i seçin.
2. Qatlar panelində qat və ya qrupu seçin.
3. Aşağıdakılardan birini edin:

• Bütün qatı göstərməyə maska yaratmaq üçün qatlar panelindən Add Layer Mask (Maska qatının əlavə olunması) düyməsini və ya Layer>Layer Mask>Reveal All-u seçin.

• Bütün qatı gizlətməyə maska yaratmaq üçün Alt-click (Windows) və ya Option-click (Mac OS) the Add Layer Mask button (Maska qatının əlavə olunması düyməsi) və ya Layer>Layer Mask>Hide All-u seçin.

C. Qatın bir hissəsini gizlətmək üçün qat maskasının əlavə olunması

1. Qatlar panelində qat və ya qrupu seçin.
2. Şəkildə hissəni seçib aşağıdakılardan birini edin:

• Seçimi göstərmək üçün qatlar panelində New Layer Mask düyməsinə (Yeni qat maskası) klik edin.

• Seçimi gizlətmək üçün qatlar panelində Alt-click (Windows) və ya Option-click (Mac OS) the Add Layer Mask düymələrini klik edin.

• Layer>Layer Mask>Reveal Selection or Hide Selection düyməsini seçin.

3. Qat maskasının silinməsi

1. Ləğv etmək (Discard): Yalnız qat maskası silinir, amma qat şəkilinin gizli hissəsi bərpa olunur.
2. Tətbiq etmək (Apply): Qat maskası kimi qat şəkli də eyni zamanda silinir.

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Tələbənin masasını təmiz saxlayın.
2. Kompüterin enerji təchizatına və periferiyalara toxunmayın.
3. Dərsdən sonra kompüterə bağlı olan bütün naqilləri cərəyandan ayırın.

Təcrübə mərhələləri

1. Duoton rəng rejimini hazırlayın.

1.1 Mənbə faylından [SuHyun.jpg] faylını açın.

Şəkil 2-2: Orijinal şəkil (SuHyun.jpg)

1.2 Faktiki rəng rejimini Duoton rəng rejiminə çevirin.

1. [RGB] rəng rejimini [Grayscale] rejiminə dəyişin.
2. Əmri aşağıdakı kimi seçin:
 - Image>Mode>Grayscale
3. Xəbərdarlıq mesajını diqqətə almamaq üçün [Discard] düyməsini klik edin.
 - Rəng [Grayscale] rejiminə dəyişiləcək.



Şəkil 2-3: Rəng rejimini dəyişmək

Şəkil 2-4: Boz rəngin çalarları rejimi

1.3 Image>Mode>Duotone dəyişin.

1. [Ink2]-ni klik etdikdə, [Custom Colors] dialoq qutusu görünəcək.
2. İstədiyiniz rəngi seçin.
3. [OK] düyməsini klik edin.
4. Qurulmanı yekunlaşdırdıqdan sonra Duoton sseçımləri dialoq qutusundan [OK] düyməsini klik edin.



Şəkil 2-5: Duotonun qurulması



Şəkil 2-6: Duoton rəngi

2. Südəbənzər üz düzəldin.

2.1 Arxa fon qatının (Background Layer) nüsxəsini kopya edin.

1. Arxa fon qatını sürüyün və [Create a new layer] ikonu üzərində klik edin.

2. Digər şəkildə [pop-up] düyməsini seçin (siçanın sağ düyməsini klik edin).



Şəkil 2-7: Arxa fon qatının kopyalanması

2.2 Şəkilin bulanıq görünə bilməsi üçün filtr (Filter) funksiyasını tətbiq edin.

1. [Background copy layer]-i seçin.



2. [Filter] əsas menyusun-dan [Gaussian Blur] alt menyusunu istifadə edin.



Şəkil 2-8: Qaus bulanıqlığı (Gaussian Blur)

1.3 Bir neçə qatı bir qatda birləşdirin.

1. [Background copy] qatını dəyişin və qatlar palitrasında seçimi normaldan Overlay-ə dəyişin.

- İki şəkilin üst-üstə düşməsi zamanı örtülü şəkil əvvəlki şəkildən daha parlaq və hamar görünür.

2. Siyahı düyməsinə klik edin.



Şəkil 2-9: Kəsmək və yapışdırmaq

3. [Merge Down] əmri ilə qatları bir qatda birləşdirin.



4. Şəkil hissələrini (gözlər, burun və ağız) təsvir edin.

4.1 Üzün təsvir olunması zamanı üz cizgilərinin (dəri, gözlər, burun, ağız) bulanıqlığını düzəldin.

1. [Quick Mask Mode]-u seçin.
 - Seçilən yer mövcud parametrlərin rəngi ilə rənglənəcək.
2. [Brush] alətini seçin.
3. [Brush] aləti ilə cizgiləri (gözlər, burun, ağız) sürüməklə böyük fərqlə iş sahəsini qurun.

4.2 Cizgilərin (gözlər, burun, ağız) seçilməsini yekunlaşdırdıqdan sonra [Standard Mode]-u seçin.

1. Rejimi [Quick Mask]-dan [Standard]-a dəyişin.
2. Seçilmiş qatı yeni qat kimi yaddaşa vermək üçün seçim yerində [Ctrl (Command) + J] əmrini basaraq qat 1-i (Layer 1) düzəldin.
 - Ctrl (Command) + J
 - Layer>New>Layer via Copy
 - [Ctrl] düyməsini basıb saxlayaraq seçilmiş şəkil üzərində siçanın sağ düyməsini basın və seçilmiş qatı, son olaraq isə Layer via Copy (Kopyala) qatını klik edin.

4.3 İki qatı bir qatda birləşdirin.

1. Yeni yaradılmış qat 1-də;
 - Filter> Sharpen> Unsharp Mask
 - Miqdar: 70%, Radius: 3.5 piksel, Kandar: 10 mərhələ
2. Filtrlədikdən sonra [Flatten Image] əmri ilə iki qatı bir qatda birləşdirin.

5. Üzün daha gö[illegible]min edin



Şəkil 2-10: Qatın birləşdirilməsi

Şəkil 2-11: Üz cizgilərində dəyişiklik etmək



Şəkil 2-12: Yeni qat 1(Layer 1) -i yaratmaq



Şəkil 2-13: Kəskinliyi azaltmaq maskası və şəkili yastılaşdırmaq

5.1 Üzü dəyişdirin.

1. [Liquify] əmri;
 - Image>Mode>RGB color
 - Duoton rejimini RGB rejiminə dəyişin.
2. Filter> Liquify-a gedin.
3. [Face tool] ilə yuvarlaq üz almaq üçün üzün konturlarını biraz içəriyə doğru dartın.
 - [Brush]-ı tənzimləyin və [Wrap] funksiyası ilə siçanı çənə hissəyə doğru sürüyərək üz cizgilərini ensizləşdirin.





Şəkil 2-13: Şəffaflaşdrma funskiyası (Liquify)

5.2 [Burn] alətini aşağıdakı kimi istifadə edin:

1. 5.1-dəki kimi və ya (Şəkil 2-13)-də olduğu kimi düz çənə xəttini sürüyərək üzün düzgün Formasını tənzimləyin.
2. Daha detallı cizgilər üçün (gözlər, burun, ağız), qaşlar, gözlər, burun forması və dodaqları çəkin.
3. Lazımsız hissənin qaralmasının qarşısını almaq üçün [Dodge] alətini seçin.
 - Ağız boşluğunda şəkili böyüdən zaman dişlərin parlaqlığını təmin edin.



Şəkil 2-14: Kandar aləti

5.3 Seçim aləti ilə gözləri cəzbedici edin.

1. [Rectangular Marquee] aləti ilə sol gözü seçin.
 - Çünki sol göz sağ gözdən daha kiçikdir.
2. [Ctrl (Command) + J] ilə seçim sahəsini yeni qat kimi düzəldin.



3. [Ctrl (Command) + T] əmri ilə sol gözü yuxarı-aşağı uzadaraq mümkün qədər sağ gözün ölçüsünə gətirin.

4. İki qatı bir qatda birləşdirin.
- Qatları birləşdirin; [Ctrl + E]
- Onları [Layer 1] kimi birləşdirin.

5.4 Gözləri daha böyük edin.

1. [Rectangular Marquee] alət ikonu ilə gözləri seçin.
2. [Ctrl (Command) + J] ilə seçim sahəsini yeni qat kimi düzəldin.
3. [Ctrl (Command) + T] ilə gözləri yuxarıya və aşağıya uzadın, azacıq sağ istiqamətə çevirin.
4. İki qatı arxa fon qatına (Background layer) birləşdirin.



6. Arxa fo si

6.1 Arxa fon təmiz olmadığı üçün lazımsız hissələri silin.

1. Silmək üçün Pipet aləti ikonu ilə arxa fonu klik edin.
- Arxa fon rəngi şəkilin arxa fonuna dəyişilir.

6.2 [Erase] aləti ilə üzün ətrafını ehtiyatla düzəldin.

1. [Erase] alətini seçin.
2. Kiçik fırça ilə şəkilin yanındakı hissəni ehtiyatla silin.
- Şəkil yalnız arxa fonun lazımsız hissəsində böyük fırçayla qalsın.
3. Yeni qat yaradın.
4. [Color Transform] düyməsini klik edin. Qabaq fon rəngi ağ rəngə dəyişiləcək.
5. Qabaq fon ağ olduğu vəziyyətdə [Alt (Option)+Delete] ilə fonu ağ edin.



Şəkil 2-15: Möhür aləti ilə Patın kopyalanması





Şəkil 2-16: Gözlərin düzəldilməsi



Şəkil 2-17: Pipet ilə iş



6. Şəkili tamamlayın.

1. [Layer 1]-də qeyri-şəffaflıq dəyərlərini tənzimləyin.

- Altdakı şəkilin qısa müddətə görünməsinə icazə verin.
- Qeyri-şəffaflıq dəyərləri: 50%

2. Üzün mərkəzində seçim edərək üzün sahəsini yaradın.

- [Elliptical Marquee] aləti ikonunu seçin.
- [Feather]-i seçim sətrindən "60 px"-ə dəyişin.

3. Seçim sahəsini tərsinə çevirin.

- Əmr: Select> Inverse
- Qat palitrasında qat maskası (Layer Mask) ikonunu klik edin.



4. Seçim sahəsindən başqa digər sahəni gizlədin.

- Seçim üçün qeyri-şəffaflıq dəyərini (Opacity value) "100" edin.
- Qaranlıqda gizlədilmiş şəkil ağ arxa fon ilə aydın şəkildə görünür.
- Üzdən başqa digər hissə təbii effektli görünür.





Şəkil 2-18: Alt+Delete funksiyası ilə qabaq fon rənginin doldurulması







Şəkil 2-19: 60 px ilə seçim sahəsi



Şəkil 2-20: Seçim sahəsinin tərsinə çevrilməsi



Şəkil 2-21: Tamamlanmış şəkil

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Qatlar və kanalların funksiyalarını dəqiq şəkildə izah etdi? 2. Bir şəkildə bir neçə şəkili düzgün formada dizayn etdi? 3. Qat maskasını (Layer Mask) şəkildə düzgün formada tətbiq etdi? 4. Qatlar paneli ikonunu effektiv şəkildə istifadə etdi? 5. Şəkil menyusu ilə rəng rejimini digərinə dəyişdi? 6. Arxa fon rəngini tələbə əsasən düzgün formada dəyişdi? 7. Obyekti asanlıqla doldurmaq üçün [Alt+Delete] düyməsini istifadə etdi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

A cool & delicious Taste!

Go to a Wondeful Future!

The HUB of ICT

3. Gözəl buz qəlibi yaratmaq

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Çəkmə alətlərinin funksiyalarını detallı şəkildə izah edəcək;
2. Müxtəlif alətləri izah edərək aydın şəkildə gözəl bir buz qəlibi hazırlamağı bacaracaq.

Təcrübə materialları:
1. Noutbuk/Stolüstü kompüter
2. Mənbə faylı
3. Media tədrisə dəstək vasitələri

Avadanlıqlar və alətlər:
1. Kompüter və periferiyalar
2. Photoshop proqramı
3. Dərslik & Dizayn məlumat kitabı
4. Proyektor

Mövzu ilə əlaqəli biliklər

1. Qat qarışdırma rejimi (Layer Blending Mode)

Seçimlər sətrində göstərilən qarışdırma rejimi boyama və ya redaktə alətinin şəkildəki piksellərə necə təsir etdiyinə nəzarət edir. Qarışdırma rejiminin effektlərini vizuallaşdırmaq üçün aşağıdakı rəngləri göz önündə canlandırın:

- Əsas rəng (base color) - şəkildə orijinal rəngdir.
- Qarışdırma rəngi (blend color) - boyama və ya redaktə aləti tətbiq olunan zaman olan rəngdir.
- The result color - qarışdırmadan alınan nəticə rəngidir.

2. Qarışdırma rejimi təsvirləri (Blending mode descriptions)



Şəkil 3-1: Qat qarışdırma rejimi

※ **Qeyd:**

32 bit şəkillərdə yalnız normal, həll, tündləşdirən, artan, işıqlanan, xətti yayınma, fərq, Canlılıq, rəng tonu, rəng, parlaqlıq, daha açıq rəng, daha tünd rəng rejimləri mövcuddur.

Blending seçim sətirində Pop up menyu

1) Normal - nəticədəki rəngi əldə etmək üçün pikseli redaktə edər və ya boyayar. Bu, ilkin rejimdir. (bitmap və ya indeksli-rəngli şəkillərlə işləyəndə normal rejim Threshold adlanır.)

2) Həll (Dissolve) - nəticədəki rəngi əldə etmək üçün pikseli redaktə edər və ya boyayar. Ancaq nəticədəki rəng piksel yerləşməsində qeyri-şəffaflıqdan asılı olaraq əsas rəng və ya qarışıq rəng ilə piksellərin təsadüfi yerləşməsidir.

3) Arxa (Behind) - yalnız qatın şəffaf hissəsində redaktə və ya boyama edir. Bu rejim yalnız kilid şəffaflığı ləğv olunduqda qatlarda işləyə bilir və asetat lövhədə şəffaf sahələrin arxasındakı təsvirə bənzərdir.

4) Aydın (Clear) -hər bir pikseli redaktə edir, boyayır və onu şəffaf edir. Bu rejim fiqur alətləri (seçilmiş sahə doldurulduqda), boya çəlləyi aləti , fırça aləti , karandaş aləti və doldurma əmri üçün mövcuddur. Siz bu rejimi istifadə etmək üçün şəffaflığı kilid ilə ləğv olunmuş qatda olmalısınız.

5) Tündləşdirən (Darken) - hər bir kanaldakı rəng məlumatlarına baxır, əsas və ya qarışdırma rənglərini seçir. Qarışdırma rənglərindən daha açıq rəng pikselləri yerləşdirilir və daha tündlər dəyişdirilmir.

6) Artan (Multiply) - hər bir kanalda rəng məlumatlarına baxır və qarışdırma rəngi vasitəsilə əsas rəngi artırır. Nəticədə yaranan rəng həmişə tünddür. Qara ilə istənilən rəngi artırdıqda qara rəng yaranır. İstənilən rəngi ağ rəng ilə artırdıqda rəng dəyişməz qalır. Ağ və qaradan başqa bir rəng ilə boyayarkən qələm aləti ilə yaradılan rəng tədricən qara rəngə dəyişər. Bu effekt işarələmə qələmi ilə çəkən zaman da oxşar olur.

7) Rəng parıltısı (Color Burn) - hər bir kanalda rəng məlumatlarına baxır və qarışdırma rəngini əks etdirmək üçün ikisi arasında kontrastı artırmaqla əsas rəngi tündləşdirir.

8) Xətti parıltı (Linear Burn) - hər bir kanalda rəng məlumatlarına baxır və qarışdırma rəngini əks etdirmək üçün parlaqlığı azaldaraq əsas rəngi tündləşdirir.

9) İşıqlandırmaq (Lighten) - hər bir kanalda rəng məlumatlarına baxır və hər bir kanalda əsas və ya qarışdırma rəngini seçir (hansı daha yüngül olarsa). Qarışdırma rənglərindən daha tünd rəng piksellər yerləşdirilir və daha açıqlar dəyişdirilmir.

10) Ekran (Screen) - hər bir kanalın rəng məlumatlarına baxır, qarışıq və əsas rənglərin təsirini artırır. Qara rəng ilə göstərən zaman rəng dəyişilmir, ağ rəng ilə göstərilən zaman isə ağ rəng yaranır. Effekt - birdən çox fotonun slayd şəklində bir-birinin üzərinə əksetdirməyə bənzəyir.

11) Rəng yayınması (Color Dodge) - hər bir kanalın rəng məlumatlarına baxır və qarışıq rəngi əks etdirmək üçün ikisi arasında kontrastı azaldaraq əsas rəngi parlaqlaşdırır. Qara rəng ilə qarışdırdıqda heç bir dəyişiklik baş vermir.

12) Xətti yayınma (Linear Dodge) - hər bir kanalın rəng məlumatlarına baxır və qarışıq rəngi əks etdirmək üçün parlaqlığı artıraraq əsas rəngi parlaqlaşdırır. Qara ilə qarışdırdıqda heç bir dəyişiklik baş vermir.

13) Örtmək (Overlay) - əsas rəngdən asılı olaraq rəngləri artırır. Nümunə naxışlar əsas rəngin kölgələrini qoruyaraq mövcud pikselləri örtür. Əsas rəng əvəz olunmur, amma orijinal rəngin işıqlılığını və ya qaranlıqlığını əks etdirmək üçün qarışıq rəng ilə qarışdırılır.

14) Yüngül işıq (Soft Light) - qarışdırma rəngindən asılı olaraq rəngləri işıqlandırır və qaraldır.

Effekt - şəkildə diffuziya olunmuş spot işığının parıldamasına bənzəyir. Əgər qarışıq rəng bozdan 50% daha açıqdırsa şəkil solğun kimi görünür. Əgər qarışıq rəng bozdan 50% daha tünddürsə şəkil daha tünd görünür. Yalnız qara və ağ rəng ilə boyamaq daha qaranlıq və daha aydın sahə yaradır, amma bütovlükdə qara və ağ rəng nəticə yaratmır.

15) Tünd işıq (Hard Light) - qarışdırma rəngindən asılı olaraq rəngləri artırır. Effekt - şəkil üzərində kəskin spot işığına bənzəyir. Əgər qarışıq rəng (işıq mənbəyi) bozdan 50% daha azdırsa şəkil sanki ekranlaşdırılmış kimi işıqlanır. Bu, təsvirə vurğu əlavə etmək üçün Faydalıdır. Əgər qarışıq rəng bozdan 50% daha tünddürsə şəkil tündləşir. Bu, şəklə kölgələr əlavə etmək üçün Faydalıdır. Yalnız qara və ağ rəng ilə boyamaq bütövlükdə qara və ağ nəticə yaradır.

16) Parlaq işıq (Vivid Light) - qarışdırma rəngindən asılı olaraq kontrastı artıraraq və azaldaraq rəngləri parlaqlaşdırır. Əgər qarışıq rəng (işıq mənbəyi) bozdan 50% daha azdırsa şəkil kontrastı azaltmaqla işıqlanır. Əgər qarışıq rəng bozdan 50% daha tünddürsə şəkil kontrastı artırmaqla tündləşir.

17) Xətti işıq (Linear Light) - qarışdırma rəngindən asılı olaraq parlaqlığı artıraraq və azaldaraq rəngləri parlaqlaşdırır. Əgər qarışıq rəng (işıq mənbəyi) bozdan 50% daha azdırsa şəkil parlaqlığı artırmaqla işıqlanır. Əgər qarışıq rəng 50% bozdan daha çoxdursa şəkil parlaqlığı azalmaqla tündləşir.

18) Pin işığı (Pin Light) - qarışdırma rəngindən asılı olaraq rəngləri yerləşdirir. Əgər qarışıq rəng (işıq mənbəyi) bozdan 50% daha azdırsa qarışdırma rəngindən daha tünd rənglər yerləşdirilir, daha açıq rənglər isə dəyişmir. Əgər qarışıq rəng bozdan 50% daha tünddürsə qarışdırma rəngindən daha açıq rənglər yerləşdirilir, daha tünd rənglər isə dəyişmir. Bu, şəklə xüsusi effektlər vermək üçün Faydalıdır.

19) Mürəkkəb qarışım (Hard Mix) - qarışdırma rənglərinin qırmızı, yaşıl və mavi kanal dəyərlərini əsas rəngin RGB dəyərlərinə əlavə edir. Bir kanal üçün əldə edilən cəm 255 və daha çoxdursa o, 255-in dəyərini əldə edir. Əgər 255-dən daha azdırsa dəyər 0-a bərabər olur. Bu səbəblə bütün qarışdırılmış piksellər 0 və ya 255 olan qırmızı, yaşıl və mavi kanal dəyərlərinə sahibdir. Bu, bütün pikselləri ilkin qarışıq rənglərə (qırmızı, yaşıl və ya mavi), ağ və ya qaraya dəyişdirir.

※Qeyd:

CMYK təsviri üçün, mürəkkəb qarışım bütün pikselləri ilkin subtraktiv rənglərə (mavi, sarı və bənövşəyi), ağ və ya qaraya dəyişdirir. Maksimum rəng dəyəri 100-dür.

20) Fərq (Difference) - hər bir kanalda rəng məlumatlarına baxır və hansının daha yüksək parıltı dəyəri olmasından asılı olaraq ya əsas rəngdən qarışdırma rəngini çıxarır, ya da qarışdırma rəngindən əsas rəngi çıxarır. Ağ ilə qarışdırmaq əsas və ya təməl rəng dəyərlərini əksinə dəyişir, qara ilə qarışdırmaq isə heç bir dəyişiklik etmir.

21) Çıxarma (Exclusion) - fərq rejiminə oxşardır, amma kontrastda daha aşağı effekt yaradır. Ağ ilə qarışdırmaq əsas və ya təməl rəng dəyərlərini əksinə dəyişir, qara ilə qarışdırmaq heç bir dəyişiklik etmir.

22) Çıxarma (Subtract) - hər bir kanalda rəng məlumatlarına baxır və əsas rəngdən qarışdırma rəngini çıxarır. 8 və 16-bit şəkillərdə ortaya çıxan neqativ dəyərlər sıfıra bərabərdir.

23) Ayırmaq (Divide) - hər bir kanalda rəng məlumatlarına baxır və əsas rəngdən qarışdırma rəngini ayırır.

24) Rəng tonu (Hue) - əsas rəngin saturasiya və parlaqlığı, eyni zamanda qarışıq rəngin rəng tonu ilə nəticə rəngi yaradır.

25) Saturasiya (Saturation) - əsas rəngin parlaqlığı, rəng tonu və qarışıq rəngin saturasiyası ilə nəticə rəngi yaradır. 0 saturasiyalı (boz) sahədə bu rejim ilə boyama heç bir dəyişikliyə səbəb ola

bilmir.

26) Rəng (Color) - əsas rəngin parlaqlığı, qarışıq rəngin saturasiyası və rəng tonu ilə nəticə rəngi yaradır. Bu, şəkildə boz səviyyələri saxlayır və monoxrom şəkillərin rənglənməsi və rəngli təsvirləri yenidən rəngləmək üçün Faydalıdır.

27) Parlaqlıq (Luminosity)- əsas rəngin rəng tonu və saturasiyası və qarışıq rəngin parlaqlığı ilə nəticə rəngi yaradır. Bu rejim, rəng rejiminin əks effektini yaradır.

28) Daha açıq rəng (Lighter Color) - qarışıq və əsas rənglər üçün bütün kanal dəyərlərini müqayisə edir və yüksək dəyər rəngi nümayiş etdirir. Daha açıq rəng üçüncü rəng yaratmır. Çünki o, nəticə rəngi əldə etmək üçün əsas və qarışıq rəngdən ən yüksək kanal dəyərlərini seçir.

29) Daha tünd rəng (Darker Color) - qarışıq və əsas rənglər üçün bütün kanal dəyərlərini müqayisə edir və daha az dəyər rəngi nümayiş etdirir. Daha tünd rəng üçüncü rəng yaratmır. Çünki o, nəticə rəngi əldə etmək üçün əsas və qarışıq rəngdən ən aşağı kanal dəyərlərini seçir.

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Tələbənin masasını təmiz saxlayın.
2. Kompüterin enerji təchizatına və periferiyalara toxunmayın.
3. Dərsdən sonra kompüterə bağlı olan bütün naqilləri cərəyandan ayırın.

Təcrübə mərhələləri

1. İş mühitinin qurulması

1) File>New - klik edərək yeni iş sənədini yaradın.

- Ad: DC03 Make a delicious ice bar (Gözəl buz qəlibi yaratmaq)
- En: 21sm
- Hündürlük: 29.7 sm
- Dəqiqlik: 300 pixel/inch
- Rəng rejimi: RGB Color, 8bit
- Arxa fon məzmunu: Ağ (White)



Şəkil 3-2: İş mühtinin qurulması

2. İş sahəsində

1)İş pəncərəsində xətkeşləri göstərin.

- View>Rulers
- [Move] alətini seçin.

Üfüqi və şaquli xətt çəkin.



Şəkil 3-3: Boz ton çaları rejimi

2) Qat palitrasının aşağısında [Create a new Layer] düyməsini klik etməklə yeni qat yaradın.



Şəkil 3-4: Yeni qat yaratmaq

3) [Rectangular Marquee] aləti ilə qəlibin ölçüsündən bir qədər böyük olan seçim sahəsi yaradın.



Şəkil 3-5: Qəlibi çəkmək

4) (Şəkil 3-5)-də hazırlanmış [Paint Bucket] aləti ilə seçilmiş sahəni rəngləyin.

- Qabaq fon rəngini aşağıdakı kimi təyin edin: C38, M8, Y85, K0



Şəkil 3-6: Qabaq fon rəngini tənzimləmə



(Qat 1)

5) Şəkilin çat divardakı kimi görüntü-sünü yaradın.

- [Ctrl (Command) + D] ilə seçilən obyekti ləğv edin.
- [Layer 1]-i aktivləşdirin.
- Filter>Filter Gallery>Craquelure

Çat sahəsi (Crack Spacing): 33
Çat dərinliyi (Crack Depth): 8
Çat parlaqlığı (Crack Brightness): 8

6) Əvvəlki addımın çat vəziyyətini tənzimləyərək taxta tekstura düzəldin.

- Filter>Blur>Motion Blur



a: Bucaq: 2°
b: Məsafə:
42 piksel

7) Lazımsız hissəni silin, çünki filtr effekti bir



Şəkil 3-7: Qabaq fon rənginin boyanması



Şəkil 3-8: Kraklür (tablolarda görünən incə çat)



Şəkil 3-9: Hərəkət bulanıqlığı (Motion blur)

tərəfdən digər tərəfə yayılır.
- [Rectangular Marquee] aləti ilə nümunə xəttə baxaraq ehtiyac olan qədər kiçik hissəni seçin.



Şəkil 3-10: Seçim sətri

8) Seçilən sahəni tərsinə çevirdikdən sonra onu [Delete] düyməsi ilə silin.
- Lazım olmayan hissə seçim sahəsinin kənarında qalır.
a) Select>Inverse-ə gedin.





Şəkil 3-11: Tərsinə çevirmə və silmə

9) Kölgəni tənzimləmək üçün [Gradient]-i seçin.
- [Ctrl (Command) + "Layer 1"i eyni vaxtda seçərək seçimi edin.
a) Qabaq fon rəngini aşağıdakı kimi təyin edin:
C48, M35, Y100, K11
b) [Gradient] alətini istifadə edin.
c) Sətirin yuxarı hissəsindən aşağı hissəsinə doğru [Foreground to Transparent] ilə siçanı sürüyün.



Şəkil 3-12: Qəlibin qradasiyası

10) Kub effekti üçün aşağı sektorda [Add a Lay-

er Style]-ı klik edin.

a) Layer>Layer Style>Bevel and Emboss…

b) [Layer Style] pəncərəsində aşağıdakıları tənzimləyin.



c) Şəkilin sərhədinin əsasında içəri tərəf vurğulanır, xarici tərəf isə kölgə effekti olur.



3. Buz çəkilməsi



Şəkil 3-13: Bevel Emboss



Şəkil 3-14: Bevel Emboss dialoq qutusu



Şəkil 3-15: Kölgə effekti

3.1 Yeni qat yaradın.
1) Qat (Layer) sektorundan [Pop-up] menyunu seçin.
Və ya
2) [Create a new layer] ikonunu klik edin.



Şəkil 3-16: Yeni qat 2 (layer 2) yaratmaq

3.2 Buzun fiqurunu dizayn edin.
1) [Elliptical Marquee] aləti ilə xətlər boyunca oval dairə çəkin.
2) Əlavə seçim üçün [Rectangular Marquee] + [SHIFT] düyməsini basıb saxlayaraq [Rectangular Marquee] alətini klik edin.



Şəkil 3-17: Buzun çəkilməsi

3.3Filter>Render>Clouds funksiysına gedin.
1) Qabaq fon rəngini aşağdakı kimi təyin edin: C100, M96, Y0, M0
2) Arxa fon rəngini aşağdakı kimi təyin edin: C77, M72, Y0, M0
3) Əvvəlki 1 və 2-ci addımlarla qabaq fon rəngini doldurun.



Şəkil 3-18: Qabaq fon rənginin dəyişdirilməsi

3.4 Top faylını buzun üzərində yerləşəcək şəkildə

açın.
1) Sehirli çubuq aləti ilə arxa fon hissəyə klik edin, çünki arxa fon ilə top arasındakı rəng fərqi çox fərqlidir.
2) Arxa fon seçimində [Shift + Ctrl (Command) + I] ilə seçimi tərsinə çevirin.
3) [Move] aləti ilə seçilmiş topu iş pəncərəsinə sürüyün.
- Qatlar panelinə qat 3-ü əlavə edin və topu buzun üzərinə yerləşdirin.

3.5 Topu buz üzərində donmuş kimi [Filter gallery…]-ni istifadə edin.
1) Filter>Filter Gallery-ə klik edin.
2) Filter Gallery dialoq qutusunda Brush Strokes>Spatter hissələrini klik edin.
3) [Spatter]-i aşağıdakı kimi təyin edin:
- Sprey Radiusu- 25
- Hamarlıq -15
4) [OK] düyməsini klik edin.

3.6 Qat 3-də [Blending] rejimini [Screen] rejiminə dəyişin.
1) [Pop-down] işarəsini klik edin.
2) [Screen] alt menyusunu klik edin.
- Hamar və təbii kompozisiya üçün mövcud rejimi Screen rejiminə dəyişin.

3.7 Buz və topu bir şəkildə birləşdirin.
1) Qat 3-də [List] işarəsini seçin.
2) [Merge Down]-u klik edin.
- [Layer 2] və [Layer 3] ilə birləşən şəkil itir.

3.8 [Layer 2] birləşməsinin kopyası ilə buz



Şəkil 3-19: Buz kompozisiyası və top

Şəkil 3-20: Ləkə effekti (Spatter effect)



Şəkil 3-21: Screen rejimi



Şəkil 3-22: Birləşdirmək (Merge Down)

üzərində oyun.
1) [Layer 2]-ni basıb saxlayaraq onu [Create a New Layer] ikonu üzərinə sürüyün.
a) [List] ikonuna klik edin.
b0 [Duplicate Layer…]-i klik edin.



Şəkil 3-23: Screen rejimi

3.9 Şəkil üzərində Gragürü göstərin.
1) [Elliptical Marquee] aləti ilə yuxarı hissədə dairə çəkin.
2) İlk olaraq [Rectangular Marquee] alətini seçin. Daha sonra [Shift] düyməsini basılı saxlayaraq, eyni zamanda düzbucaqlı alətini sürüyün.
- (Şəkil 3-24)-də olduğu kimi seçim sahəsini düzəldin.
3) Mövcud qatı saxlayaraq digər qatları görünməyən yerə dəyişin.



Şəkil 3-24: Screen rejimi

3.10 Topun içindən qütb şəklini çəkin.
1) Klaviaturada [Delete] düyməsi ilə əvvəlki addımın [3.9; (Şəkil 3-24)] seçim sahəsini silin.
2) Seçim sahəsini sağ istiqamətə dəyişmək üçün
- Sol seçim sahəsini seçin.
- [Shift] düyməsini basılı saxlayaraq siçanı sağ tərəfə sürüyün.
3) Delete düyməsi ilə çuxuru düzəltdikdən sonra [Ctrl (Command) + D] ilə seçilmiş sahəni silin.



Şəkil 3-25: Qütb fiquru

3.11 Üç ölçülü effekt verin (Kub effekti)
1) Həcmi tapmaq üçün
- Layer>Layer>Bevel & Emboss…



2) [Bevel & Emboss…] dialoq qutusunda şəklə həcm effekti verin.
- (Şəkil 3-26)-da olduğu kimi hər biri üçün dəyər



Şəkil 3-26: Screen mode

təyin edin.

3.12 Top faylını açın.
- Yalnız topu seçin və onu mövcud iş pəncərəsinə sürüyün. Topu iş pəncərəsinə daxil edin və sonra (Şəkil 3-27)-də olduğu kimi faylı bağlayın.



Şəkil 3-27: Topun buz qəlibinə daxil edilməsi

3.13 Qatları (Layers) uyğun qaydada yerləşdirin.
1) [Layer 3]-ə daxil edilmiş topu [Layer 2] və [Layer 2 copy] arasında yeləşdirin.
2) Qatın qarışdırma rejimini rəng rejiminə qurun və bununla da şəkillər təbii olaraq birləşəcək.



Şəkil 3-28: Rəng qarışdırma rejimi

3.14 Overlay (örtmək) rejimi ilə örtük rəngini daha parlaq göstərin.
1) Parlaqlıq fərqini həcmli və örtük bir fenomendən çıxaran [Layer 2 Copy]-ni seçin.
2) Qarışdırma rejimini [Overlay]-ə tənzimləyin.



Şəkil 3-29: Overlay blending rejimi

4. Buz qəlibi ilə uyğun gələn mətni yazın.

4.1 Mətnin asanlıqla yazılması üçün məlumat xəttini çəkin.
1) Məlumat xəttini [Move] alət sahəsinə uzadın.
2) [Horizontal Type] alətini seçin.
- Seçim sətrində şrift rəngini və şrifti müəyyənləşdirin.
- Siçan klik olunduqda avtomatik olaraq yeni qat yaratmaq imkanı olur.
- [A cool & delicious Taste!] mətnini daxil edin.

Şəkil 3-30: Mətni yazmaq

4.2 Məlumat xətti boyunca şrift ölçüsünu müvafiq şəkildə tənzimləyin.
1) [Ctrl (Command) + T] düyməsini basın.
2) Şrift növünü italic etmək üçün çərçivə qutusunda düzbucaqlının kənarlarını dartın.



Şəkil 3-31: Italic şrift növü

4.3 Mətni italic şrift ilə (Şəkil 3-31)-də olduğu kimi düzəldin.
1) [Ctrl (Command) + T] ilə mətni italic stilində uzadın.
- Kursoru çərçivə qutusunun yuxarı sağ küncü üzərinə qoyun.
- [Ctrl (Command) + T] düyməsi basıldıqda kursorun forması üçbucaq fiquruna dəyişir.
2) Bu vaxtı siçanı sağ tərəfə sürüyün. Beləliklə, mətni (hərfləri) sağ istiqamətə uzadın.

4.4 Başlıq görüntüsünün özəlliyi üçün uyğun olan mətni düzəldin.
1)Üfüqi yazı aləti ilə [Go to a Wonderful Future!] mətnini daxil edin.

Şəkil 3-32: Mətnin redaktə olunması

2) Şrifti və mətni redaktə etmək üçün mətni sürüyərək müəyyən edin.
3) [Character] palitrasını gətirmək üçün seçim sətrindən ikona klik edin.
- Windows>Character
4) Character palitrasında rəngi, hərflər arasındakı məsafəni və şkalanı tənzimləyin.



Şəkil 3-33: Character palitrası

4.5 Buz qəlibinin sağ tərəfinə mətni əlavə edin.

1) Şaquli yazı alətini seçin.
2) [The Hub of ICT!] mətnini daxil edin.



Şəkil 3-34: Şaquli yazı aləti

4.6 [Character] və [Free Transform] palitrasının funksiyalarını tətbiq edin.
1) Şrift ölçüsünü tənzimləyin.
2) Xüsusilə [Character] palitrasında mətn boşluğunun tənzimlənməsi vasitəsilə sözlər arasındakı boşluğu tənzimləyin.
- Windows>Character
3) Lövhə ölçüsünü müvafiq ölçüdə tənzimləyin.
- Image>Canvas Size



Şəkil 3-35: Character palitrasında

5. Şəklə harmonik şəkildə loqo işarəsini (Logo Mark) daxil edin.
5.1 Loqo işarəsini mövcud iş pəncərəsinə gətirin.
1) File>Place Embedded-i icra edin.
2) Loqo işarəsini seçin və [Place] düyməsini basın.
- Uzatma: EPS
3) [Place] funksiyası klik olunduqda loqo işarəsini çərçivə-qutu kimi iş pəncərəsinin mərkəzində yerləşdirin.
4) İş vəziyyətini bir daha yoxlayın.

Şəkil 3-36: Tamamlanmış şəkil

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Çəkmə alətinin funksiyalarını detallı şəkildə izah etdi? 2. Müxtəlif alətləri istifadə edərək gözəl buz qəlibini aydın şəkildə düzəltdi? 3. Qarışdırma rejimi ilə şəkili düzgün formada tətbiq etdi? 4. Qat stilini görüntüyə uyğun şəkildə tənzimlədi? 5. Filtri müvafiq formada istifadə edərək şəklə xüsusi effekt verdi? 6. Müəyyən edilmiş vəziyyətdə düzgün şəkildə mətni əlavə etdi? 7. Buz qəlibinin bütün elementlərini müvafiq şəkildə tətbiq etdi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

ROMA
ROMA

4. Maraqli slayd filmi təşkil etmək

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Səviyyələrin və tarixin funksiyalarını aydın şəkildə izah edəcək;
2. Slayd filmlərinin düzgün şəkildə tərtib olunmasını biləcək.

Təcrübə materialları:
1. Noutbuk/Stolüstü kompüter
2. Mənbə faylı
3. Media tədrisə dəstək vasitələri

Avadanlıqlar və alətlər:
1. Kompüter və periferiyalar
2. Photoshop proqramı
3. Dərslik & Dizayn məlumat kitabı
• İstifadəçi müxtəlif kateqoriyaları seçərək format sseçımlərinin müxtəlif qrupuna keçə bilər.

1.3 Nəzərə alınmayan növün silinməsi

1) Simvol növləri və ya simvol stillərinin qarşısında üstəgəl işarəsi varsa bu, stildə nəzərə alınmamaların olduğunu göstərir.

2) Bu, eyni zamanda stil tərəfindən müəyyən olunan atributlara uyğun gəlməyən hər hansı bir format hesab olunur.

• Mətni stilin müəyyən etdiyi görünüşə qaytarmaq üçün menyu panelindən [Clear Overrides]-ı seçin.

• Müxtəlif stillərdən təmizləmək üçün [Alt+klik] (Windows) və ya [Option+klik] (Mac OS) seçin.

※ Qeyd:

Əgər istifadəçi cari formatı saxıamaq istəyirsə o zaman bu seçimlərdən uzaq qalmalıdır.

1.4 Simvol və ya paraqraf stillərinin silinməsi

1) İstifadəçi stilləri sildikdə stilə etiketlənmiş simvolların görünüşləri dəyişmir, amma onların formatları bu prosesdən sonra stil ilə əlaqəli olmur.

1. Simvol stilləri panelində və ya paraqraf stilləri panelində stil adını və ya adlarını silin.

2. Aşağıdakılardan birini tətbiq edin:
• Panel menyusundan simvol stilini silmək və ya paraqraf stilini silməyi seçin.
• Panelin aşağısından [Delete] ikonunu klik edin.
• Stili panelin aşağısından [Delete] ikonuna sürüyün.
※ Qeyd:
İstifadə olunmayan bütün stillərin silinməsi üçün [Select All] funksiyasını seçin və daha sonra [Delete] ikonuna klik edin.

1.5 Digər illustrator sənədindən simvol və paraqraf stillərinin yüklənməsi

1. Simvol stilləri panelində və paraqraf stilləri panelində aşağıdakılardan birini tətbiq edin:
• Panel menyusundan simvol stillərini yükləməyi və ya paraqraf stillərini yükləməyi seçin.
• Həm simvol, həm də paraqraf stillərini yükləmək üçün menyu panelinden bütün stilləri yükləmək funksiyasını seçin.
Daxil etmək istədiyiniz stillərdən ibarət illustrator sənədini iki dəfə klik edin.

2. Mövcud klaviatura qısayol (Shortcuts) düymələri

2.1 Ən çox istifadə olunan qısa yol düymələri

Qısayol düymələri (Shortcuts)	Windows	MacOS
Geriyə qaytarmaq	Ctrl + Z	Command + Z
Təkrar icra etmək	Shift + Ctrl + Z	Shift + Command + Z
Kəsmək	Ctrl + X	Command + X
Kopyalamaq	Ctrl + C	Command + C
Yapışdırmaq	Ctrl + V	Command + V
Qarşı tərəfə yapışdırmaq	Ctrl + F	Command + F
Arxaya yapışdırmaq	Ctrl + B	Command + B
Yerində yapışdırmaq	Shift + Ctrl + B	Shift + Command + B
Bütün iş lövhələrinə yapışdırmaq	Alt + Shift + Ctrl + B	Option + Shift + Command + B
Yazılışın yoxlanması	Ctrl + I	Command + I
Rəng parametrləri dialoq qutusunun açılması	Shift + Ctrl + K	Shift + Command + K
Klaviatura qısa yol dialoq qutusunun açılması	Alt + Shift + Ctrl + K	Option + Shift + Command + K
Seçimlər dialoq qutusunun açılması	Ctrl + K	Command + K

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Şagirdin masasını təmiz saxlayın.
2. Kompüterin enerji təchizatına və periferiyalara toxunmayın.
3. Dərsdən sonra kompüterə bağlı olan bütün naqilləri cərəyandan ayırın.

Təcrübə mərhələləri

1. Vaxtı göstərmək üçün saat çəkilməsi

1) File>New-ya klik edərək yeni sənəd yaradın.

• Yeni iş lövhəsinin yaradılması
• Ad: Ai 09 dərs saatı
• Ölçü: A4
• En: 297mm
• Hündürlük: 210mm
• Oriyentasiya: Üfüqi
• Rəng rejimi: CMYK
• Skan Effektləri: Yüksək (300ppi)



Şəkil 9-2: Yeni iş lövhəsinin yaradılması

1. [Create Document] ikonunu klik edin.

2) Ellips aləti ilə kiçik dairə çəkin.

1. [Ellipse Tool: L]-i seçin.
2. İş lövhəsini (ekranı) klik edin.
3. [Ellipse] dialoq qutusunda
   • En: 8mm
   • Hündürlük: 8mm
4. [OK] düyməsini klik edin.



Şəkil 9-3.: Mətbəx şəklinin qoyulması

3) [Shift+Alt+Sürümək] ilə obyektin kopya-lanması.
1. [Selection Tool: V]-ni seçin.
• Dairə seçin.
2. [Ctrl+C] düyməsini basıb saxlayın.
• [Ctrl+Shift+V] düyməsini dörd dəfə sıxaraq dairəni kopyalayın. (dairələrin ümumi sayı 5 olmalıdır)
3. Kopyalanmış hər bir obyekti seçin.
• [Shift+Alt] düyməsini basıb sax-lamaqla obyekti sürüyərək ölçünü tənzimləyin.
4. [Shift+Alt] düymələrini basıb saxlayaraq obyektləri sağ tərəfə sürüyüb kopyalayın.



Şəkil 9-4.: Dairələrin kopyalanması

4) [Character] panelinin parametrlərini tənzimləyin.
1. [Character] panelini aşağıdakı kimi təyin edin:
• Şrift: Wide Latin
Şrift ölçüsü: 29pt
• Dolğu rəngi: C 0%, M 0%, Y 0%, K 60%
2. [Type Tool: T] ilə mətni yazın.
• Mətn: “SCHOOL HOUR” (Məktəb saatı)
3. [Character] panelində altyazı seçimini aşağıdakı kimi təyin edin:
• Şrift: Nueva Std
• Şrift ölçüsü: 15pt
4. Mətni yazın: “BEGINNING AM” (Başlama), “CLOSING PM” (Bitmə)
5. Vaxt şrifti üçün [Character]-i qurun.
• Şrift: Dutch 801 Rm BT (Roman)
• Şrift ölçüsü: 15pt
6. Mətni yazın: “09:00”, “15:00”



Şəkil 9-5: Mətnlərin yazılması

5) Obyektlərin dairənin ortasından kənarına doğru yerləşdirilməsi.
1. [Selection Tool: V]-ni seçin.
2. Hər bir dairəni seçib dolğu rəngini aşağıdakı kimi təyin edin;
• 1-ci: C0%, M0%, Y0%, K80%
• 2-ci: C0%, M0%, Y0%, K0%
• 3-cü: C21%, M12%, Y46%, K0%
• 4-cü: C0%, M74%, Y84%, M0%
• 5-ci: C0%, M0%, Y0%, K100%
3. [Shift + Ctrl +]] düyməsi ilə obyektləri yer-



Şəkil 9-6: Rəng tənzimləmələri

ləşdirin.

6) Sağdakı dairələrin rənginin soldakılar kimi təyin edilməsi
1. [Eyedropper Tool: I]-ni seçin.
2. Sağdakı dairələrin rəngini soldakı dairələrin rəngi ilə eyni edin.
3. Bütün obyektləri seçin.
4. [Ctrl + 2] düyməsini sıxın.



Şəkil 9-7: Gözdamcısı pipeti

7) Xətti 12 saat istiqamətinə çəkin.
1. Keçidi görmək üçün [Ctrl+Y] düymələrini klik edin.
• Xətkeşi göstərmək üçün [Ctrl+R] düyməsini sıxın.
2. Sol xətkeşi mərkəzə sürüyün.
3. Xətkeşi sağ dairənin mərkəzinə sürüyün.
4. [Pen Tool: P]-ni seçin.

5. Xətti düzəltmək üçün beşinci dairə üzərində 12 saat istiqamətinin nöq-təsini klik edin.
6. Xətti düzəltmək üçün ikinci dairə üzərində 12 saat istiqamətinin nöq-təsini klik edin.



Şəkil 9-8: Xətti 12 saat istiqamətinə çəkin



8) dairənin mərkəz nöqtəsi təməlində xətti fırladın.
1. [Ctrl + Y] düyməsini bir daha sıxın.
• [View]-[Outline]-a gedin.
2. Xətti seçin.
3. [Rotate Tool: R]-ni seçin.
4. Alt düyməsini basıb saxlayaraq əsas dairənin mərkəzini klik edin.
5. [Rotate] dialoq qutusunda parametrləri aşağıdakı kimi təyin edin:
• Öncədən baxış: Yoxlamaq
6. Bucaq: 30°
7. [Copy] düyməsini klik edin.



Şəkil 9-9: Dairənin bölünməsi

9) Dairəni bölmək üçün xəttin çəkilməsi
1. [Ctrl + D]-ni 10 dəfə klik edin.

2. Saat, dəqiqə əqrəbinin çəkilməsi
1) [Layers] panelində yeni qat yaradın.
1. [Create New Layer] düyməsini klik edin.
2. [Ctrl + “] ilə şəbəkəni göstərin.
3. Qat 1-də gözü gizlədin.
4. [Rectangle Tool: M] ilə düzbucaqlı çəkin.
• Dolğu rəngi: C0%, M0%, Y0%, M60%
• Xətt rəngi: None
• En: 2.5mm
• Hündürlük: 48mm
5. [OK] düyməsini klik edin.

2) Poliqon aləti ilə üçbucaqlının çəkilməsi
1. [Tools] panelindən [Polygon Tool]-u seçin.
2. Düzbucaqlının aktındakı nöqtəni klik edin.
3. Poliqon dialoq qutusunda aşağıdakı parametrləri tənzimləyin:
• Radius: 4.5mm
• Tərəflər: 3
4. [OK] düyməsini klik edin.

3) Yuvarlaq künclərlə künc dairənin yaradılması
1. [Selection Tool: V] üçbucaqlı obyektini seçin.
2. [Effect]-[Stylize]-[Round Corners]-ə gedin.
3. [Round Corners] dialoq qutusunda parametrləri aşağıdakı kimi qurun:
• Radius: 3mm
4. Öncədən baxış: Yoxlamaq
5. [OK] düyməsini klik edin.

4) [Polygon Tool] ilə üçbucaqlının çəkilməsi



Şəkil 9-10: Saat/ Dəqiqə əqrəbi



Şəkil 9-12: Stil effekti



Şəkil 9-13: Stil effekti

1. Shift düyməsini basılı saxlayaraq düzbucaqlını seçin.
2. [Horizontal Align Center] ikonunu klik edərək mərkəzə düzüm edin.
3. [Polygon Tool]-u seçin.
4. Düzbucaqlının yuxarı nöqtəsinə klik edin.
5. [Polygon] dialoq qutusunda parametrləri aşağıdakı kimi qurun:
• Radius: 3mm
• Tərəflər: 3
6. [OK] düyməsini klik edin.



Şəkil 9-14: Dəqiqə əqrəbinin çəkilməsi

5) [Pathfinder] paneli ilə obyektlərin birləşdirilməsi
1. Obyekt keçidini göstərmək üçün [Ctrl+Y] düymələrini sıxın. [Selection Tool: V]-ni seçin.
2. Alt düyməsini basılı saxlayaraq siçanı sürüyüb seçilmiş obyekti kopyalayın.
3. Poliqon obyektinin çərçivə qutusunu 180° dərəcə döndərin:
• Onu hərəkət etdirin və obyekti romb şəklində yerləşdirin.
4. [Pathfinder] panelində [Unite] ikonunu klik edin:
• Obyektləri birləşdirin.



Şəkil 9-15: Seçimi birləşdirmək

6) Romb fiqurunun künclərinin tənzimlənməsi
1. [Direct Selection Tool: A]-nı seçin.
2. Rombun sağ əsas nöqtəsini seçin.
3. [Control] panelində parametrləri aşağı-dakı kimi təyin edin:
• Künclər: 2mm



Şəkil 9-16: Künc dəyərlərinin müəyyən olunması

7) Rombun böyüdülməsi

1. [Control] panelində eyni şəkildə sol əsas nöqtəni seçin:



• Küncləri 2mm təyin edin.
• Əsas nöqtəni 1mm yuxarı və aşağı tənzimləyin.
2. [Selection Tool: V] ilə rombu seçin.
• Obyekti kopyalamaq üçün [Shift+Alt] düymələrini basılı saxlayaraq obyekti sürüyün.
3. (Şəkil 9-17)-də olduğu kimi rombu böyüdün.



Şəkil 9-17: Horizontal düzüm mərkəzi

8) Obyekin üfüqilik mərkəzində düzülməsi
1. [Ctrl+Y] düyməsini sıxın.
2. [Selection Tool] ilə dörd obyekt seçin.
3. [Align] panelində
• [Horizontal Align Center] ikonunu klik edin.
• Obyektləri üfüqilik mərkəzində düzün.



Şəkil 9-18: Dəqiqə əqrəbinin yerləşdirilməsi

9) Saatın mərkəzinə dəqiqə əqrəbinin ucunu yerləşdirin.
1. [Layers] panelindən qat 1-in göz ikonunu klik edin.
• Mətni və saat şəklini göstərin.
2. Saatın mərkəzinə dəqiqə əqrəbinin ucunu yerləşdirin.

10) Kopyalanmış saat əqrəbinin dolğu rənginin müəyyən olunması
1. [Selection Tool: V] ilə dəqiqə əqrəbini seçin.
2. [Rotate Tool: R]-ı seçin.
3. Alt düyməsini basıb saxlayaraq saatın mərkəzini klik edin.
4. [Rotate] dialoq qutusunda
• [Preview] qutusunu yoxlayın.
• [Angle]-ı “90°” dərəcə edin.
5. [Copy] düyməsini klik edin.



Şəkil 9-19: Fırlatmaq və kopyalamaq

6. [Fill color]-ı aşağıdakı kimi təyin edin:
• C 0%, M 0%, Y 0%, K 90%



11) Üfüqi olmaq üçün saat və dəqiqə əqrəbi ucunun fırladılması
1. Sağ saatın saat əqrəbi və dəqiqə əqrəbi ucunun yerini dəyişin və eyni şəkildə kopyalayın.
2. Şaquli olması üçün saat əqrəbini və dəqiqə əqrəbin ucunu fırladın.



[Digər şəkildə]
11.1 Saat əqrəbini 270° dərəcə fırladın.

1. [Rotate Tool: R]-ı seçin.
2. Alt düyməsini basılı saxlayaraq saatın mərkəzini seçin.
3. [Rotate] dialoq qutusu
• [Preview] qutsunu yoxlayın.
• [Angle]-ı “270°” qurun.
4. [OK] düyməsini klik edin.

12) İki saatın tənzimlənməsi
1. [Fill color]-ı dəyişin.
• Ağ rəngi təyin edin.
2. [Character] panelindən Şrifti təyin edin.
• Şrift ölçüsü: 12pt
3. [Type Tool: T] ilə rəqəmləri daxil edin.



Şəkil 9-20: Sağ saat əqrəbi_A növü



Şəkil 9-20: Sağ saat əqrəbi_A növü



(Yekunlaşmış sağ saat əqrəbi>



Şəkil 9-22: Məktəb saatı şəklinin tamamlanması

• Sol saatda yazı “9”
• Sağ saatda yazı “3”
4. Məktəb saatını tamamlayın.

13) Tamamlanmış şəkilin yaddaşa verilməsi
1. [File]-[Export]-a gedin.
2. [Export] dialoq qutusunda
• Fayl növü: *.JPEG (*.JPG)
3. [Export] düyməsini klik edin.

14) “JPEG” parametrlərinin təyin olunması
1. [JPEG Options] dialoq qutusunda
2. Keyfiyyət: Maksimum
3. Dəqiqlik: High (300ppi)
4. [OK] düyməsini klik edin.



Şəkil 9-23: JPEG parametrləri



Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Parametr tənzimləmələri vasitəsilə xüsusiyyət panelini izah etdi? 2. Vaxtı dəqiq şəkildə göstərmək üçün vaxt yarlığını yaratdı? 3. Qısa yol düyməsini doğru zamanda istifadə etdi? 4. Yazı alətini sərbəst şəkildə istifadə etdi? 5. Qısa yol düyməsi ilə xətkeşi dəqiq şəkildə gizlədib/ göstərdi? 6. “Ctrl + D” düymələri ilə dairəni dəfələrlə kopyaladı? 7. Saat əqrəbinin dəqiq şəkildə yaradılması üçün fırlatmaq alətindən istifadə etdi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

CRUSH
ON
YOU
DESIGNER WORLD
2020. 12. 31
BAKU STUDIO 123
+994 12 111 1111

10. Canlı tekstura ilə bannerin yaradılması

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Transformasiya alətinin aydın şəkildə izah etməyi bacaracaq;
2. Mövcud tekstura ilə banneri mükəmməl şəkildə yaratmağı biləcək.

Təcrübə materialları:
1. Stolüstü kompüter/Noutbuk
2. Qaynaq fayl
3. Media tədrisə dəstək vasitələri

Avadanlıqlar və alətlər:
1. Kompüter və periferiyalar
2. İllüstrator proqramı
3. Dərslik & Dizayn məlumat kitabı
4. Proyektor

Mövzu ilə əlaqəli biliklər

1. Effektlər

1) İllüstrator istifadəçinin obyektə, qrupa və ya hər hansı bir qata onun xüsusiyyətlərini dəyişmək üçün tətbiq etdiyi müxtəlif effektlərdən ibarətdir.

1. İstifadəçi obyektə effekt tətbiq etdikdə həmin effekt görünüş panelində meydana çıxır.

2. Görünüş panelindən effekti redaktə etmək mümkündür. Redaktəyə köçürmək, çoxaltmaq, silmək və ya qrafik stilinin bir hissəsi kimi yaddaşa vermək daxildir.

3. İstifadəçi effekti istifadə etdikdə əvvəlcə obyekti böyütməli və ya genişləndirməlidir.

2) Effektlər menyusunun yuxarı yarısındakı effektlər vektor effektlərdir.

1. İstifadəçi bu effektləri yalnız vektor effektlərində və ya görünüş panelində nöqtəli təsvir (bitmap) obyektini doldurmaq üçün tətbiq edə bilər.

2. Aşağıdakı effektlər və yuxarı sıradan effekt xüsusiyyətləri bu qaydanın istisnalarıdır. Həm vektor, həm də nöqtəli təsvir (bitmap) obyektinə tətbiq oluna bilər.

• 3D effektləri, SVG filtrləri, Warp effektləri, transformasiya effektləri, kölgə düşməsi, Feather, daxili parıltı və xarici parıltı

3) Effektlər menyusunun aşağı yarısındakı effektlər raster-skan effektləridir. İstifadəçi onları vektor və ya bitmap obyektinə tətbiq edə bilər.

1.1 Effektin tətbiq olunması

1. Obyekt və ya qrupu seçin. (Və ya qatlar panelinden hədəf qatı seçin)

• Əgər istifadəçi obyektin spesifik simvoluna effekt tətbiq etmək istəyirsə əvvəlcə obyekti daha sonra isə görünüş panelindən simvolu seçməlidir.

2. Aşağıdakılardan birini edin:

• Effektlər menyusundan bir əmr seçin.

• Görünüş panelindən [Add New Effect] -i, daha sonra isə istədiyiniz effekti seçin.

3. Dialoq qutusu meydana çıxırsa parametrləri tənzimləyin və [OK] düyməsini klik edin.

※ Qeyd:
Ən son istifadə edilən parametrləri və effekti tətbiq etmək üçün Effect>Apply [Effect Name]-i seçin.

1.2 Raster-Skan effekti
1) Raster-Skan effektləri vektor məlumatları yerinə piksel yaradan effektlərdir.
• Raster-skan effektinə SVG filtrləri, effektlər menyu panelinin aşağı hissəsində olan bütün effektlər daxildir. Eyni zamanda? kölgə düşməsi, daxili parıltı, xarici parıltı da həmçinin.
• Və Effect>[Stylize submenu]-da Feather əmri

2) İllüstratorda RIE (Resolution Independent Effects) vasitəsi aşağıdakıları etməyə imkan verir:
• Sənəd Raster-Skan Effektləri Parametrlərində (DRES) dəqiqlik dəyişildikdə effektlərdə parametrlər başqa dəyər qazanır. Belə ki, effektin görünüşündə minimal dəyişiklik olur və ya heç bir dəyişiklik olmur.
• Effekt dialoq qutusunda yeni dəyişiklik tətbiq olunmuş dəyərlər əks etdirilir.
• Bir parametrdən daha çox effekt almaq istədikdə illüstrator yalnız skan effektlərinin həlli ilə bağlı parametrlərə yenidən məna verir.

3) Misal üçün, Halftone Pattern dialoq qutusunda müxtəlif parametrlər var. Amma Raster-Skan Effektləri Parametrləri dəyişildikdə yalnız ölçü dəyəri dəyişilir.
4) İstifadəçi Effect>[Document Raster Effects Settings]-i seçərək sənəd üçün pikselləşdirmə parametrlərini aktiv edir.
※ Qeyd:
Əgər effekt ekranda yaxşı görünürsə, amma çap edildikdə detalları və görünüşü itirirsə sənədin raster-skan effektləri dəqiqliyini artırın.

1.3 Pikselləşdirmə parametrləri
• İstifadəçi sənəddə piksel effektləri üçün və ya vektor obyektini pikselləşdirən zaman aşağıdakı parametrləri tənzimləyə bilər:
1) Rəng modeli
1. Pikselləşdirmə zamanı istifadə olunan rəng modelini seçir.
2. İstifadəçi RGB və ya CMYK rəng görünüşündə boz rəng çalarları və ya 1 bit görünüşü (seçilən parametrdən asılı olaraq qara, ağ və qara və ya şəffaf) yarada bilər.

2) Pikselləşdirmə
1. Pikselləşdirilmiş şəkildə inch-ə görə piksellərin rəqəmini təyin edir.
2. Vektor obyektini pikselləşdirən zaman ümumi dəqiqlik parametrlərini istifadə etmək üçün Raster-Skan Effektləri dəqiqliyini istifadə etməyi seçin.

3) Arxa fon
1. Vektor qrafiklərinin şəffaf sahəsinin piksellərə necə konvert olunmasını müəyyən edin.
2. Şəffaf sahələri ağ piksel ilə doldurmaq üçün ağ, arxa fonu şəffaf etmək üçün isə şəffaf rəngləri seçin.
3. Əgər istifadəçi şəffafı seçirsə o,1 alfa kanalı yaradır (1 bit təsvirlərindən başqa bütün təsvirlər üçün)
• Şəkil Photoshopa eksport olunursa alfa kanalı saxlanılır. (Bu, şəkilin fərqli tonda piksellərə sahib sahəsinin kənarında ara tonlara sahib piksellər yaratmaq, qırpma maskasından daha yaxşıdır).

4) Anti-alias

1. Pikselləşdirilmiş şəkildə çıxıntılı kənarların görünüşünü azaltmaq üçün tətbiq olunur.

2. Sənəd üçün pikselləşdirmə parametrlərini tətbiq etdikdə incə xətlərin Canlılığını saxlamaq üçün bu seçimi ləğv edin.

3. Vektor obyektini pikselləşdirdikə anti-aliasing tətbiq etməmək üçün və pikselləşdirdikdə xətlərin kəskin kənarlarını saxlamaq üçün None-nı seçin.

4. Yazı olmadan şəklə ən çox uyğun olan anti-aliasing tətbiq etmək üçün Art Optimized seçilir.

5) Kəsim maskasının yaradılması

1. Pikselləşdirilmiş şəklin arxa fonunun şəffaf görünməyi üçün maska yaradın.

2. Əgər istifadəçi arxa fon üçün şəffaflığı seçirsə kəsim maskasını yaratmağa ehtiyac yoxdur.

6) Obyekt ətrafının əlavə olunması

• Pikselləşdirilmiş təsvir ətrafına müəyyənləşdirilmiş piksel rəqəmlərini əlavə edərək sərhəd və ya dolğunu (araqat) əlavə edin. Nəticədə meydana çıxan görüntünün ölçüləri orijinal ölçülər olaraq və obyekt ətrafının əlavə olması parametr dəyərləri ilə görünür.

1. İstifadəçi bu parametrləri məsələn, anlıq görüntü effekti (snapshot) yaratmaq üçün istifadə edir.

• Ətraf obyekt əlavə olunması parametrləri üçün dəyəri müəyyənləşdirin ağ arxa fonu seçin, amma kəsim maskasının yaradılmasını seçməyin.

• Orijinal obyektə əlavə olunmuş ağ sərhəd təsvirin görünən sərhədi olur.

• İstifadəçi orijinal şəkili təsvirə bənzətmək üçün xarici parıltı və kölgə düşməsi effektlərini tətbiq edə bilər.

1.4 Bitmap təsvirlərinə effektlərin tətbiq edilməsi

1) Effektlər bitmap şəkillərinə və həmçinin vektor obyektlərinə xüsusi görünüş verməyə şərait yaradır.

• Misal üçün, istifadəçi işıqlandırma dəyişikliyini tətbiq edə, şəkilləri təhrif edə və digər maraqlı vizual effektlər yarada bilər.

2) Xüsusilə bitmap obyektlərinə effektləri tətbiq etdikdə aşağıdakı məlumatları nəzərə alın:

1. Effektlər bir-biri ilə əlaqəli olan bitmap obyektlərində işləmir.

• İstifadəçi bağlı bitmap üçün effekt tətbiq etdikdə həmin effekt orijinal bitmap əvəzinə qatışdırılmış kopyaya tətbiq olunur.

• Effekti orijinala tətbiq etdikdə istifadəçi orijinal bitmapi sənəddə saxlamalıdır.

2. Adobe Illustrator Adobe Photoshop məhsullarından və Adobe olmayan proqram təminatından plug-in effektlərini dəstəkləyir.

• Quraşdırılan zaman effekt menyusunda əksər plug-in effektləri meydana çıxır və built-in effektləri ilə eyni qaydada işləyir.

3. Xüsusilə yüksək pikselli bitmap şəkillərinə tətbiq edilən zaman bəzi effektlərin yaddaşı çox ola bilər.

1.5 Effektivliyin artırılması

1) Bəzi effektlərin yaddaşı çoxdur.

2) Bu effektləri tətbiq edən zaman aşağıdakı texnikalar effektivliyin artırılmasına köməklik göstərəcək:

1. Arzu olunmayan nəticələrin qarşısını almaq üçün və vaxta qənaət etmək üçün effekt dialoq qutusundan öncədən baxışı seçin.

1. Tənzimləmələri dəyişin. Bəzi əmrlərin (Glass kimi) yaddaşı çoxdur.

• Surəti artırmaq üçün müxtəlif parametrləri yoxlayın.

2. Əgər siz boz rəng çalarlarını çap etməyi planlayırsınızsa effektləri tətbiq etməzdən qabaq bitmap təsvirinin kopyasını boz rəng çalarına konvert edin.

• Qeyd etmək lazımdır ki, bəzi hallarda effektin bitmap təsvirinə tətbiq edilməsi və onun boz rəng çalarına konvert edilməsi eyni effektin birbaşa şəklin boz rəng çalarına tətbiq edilməsi ilə eyni nəticəni verməyə bilər.

1.6 Effekti dəyişdirmək və silmək

1) İstifadəçi görünüş panelini istifadə edərək effekti dəyişdirə və ya silə bilər.

1. Effektləri istifadə etmək üçün obyekt və ya qrupu seçin.

2. Aşağıdakılardan birini tətbiq edin:

• Effekti dəyişdirmək üçün görünüş panelində altından xətt çəkilmiş mavi adı seçin. Effektlər dialoq qutusunda istədiyiniz dəyişiklikləri edin və daha sonra [OK] düyməsini klikləyin.

• Effekti silmək üçün görünüş panelində sadalanmış effekt siyahısını seçin və silmək düyməsini klik edin.

4) Əgər istifadəçi mətni seçirsə və ya kursoru mətnə əlavə edirsə, Simvol stilləri və paraqraf Stilləri panelində aktiv stillər seçilir.

• Misal üçün, sənəddə hər bir simvol Normal Simvol, hər bir paraqraf isə Normal Paraqraf Stili kimi təyin olunur.

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Şagirdin masasını təmiz saxlayın.
2. Kompüterin enerji təchizatına və periferiyalara toxunmayın.
3. Dərsdən sonra kompüterə bağlı olan bütün naqilləri cərəyandan ayırın.

Təcrübə mərhələləri

1. PhotoShop ilə mətnin dizayn olunması

1) [Photoshop]-u istifadə etmək.

1. Mənbə faylından “BKhouse_Neonsign.psd” adlı nümunə faylını açın.

2. Kərpic arxa fonu və mətn formalı obyekti əvvəlcədən təmin edin.



Şəkil 10-1: Photoshop faylı

2) “Type copy” adlı qatın yaradılması

1. [Type] qatını seçin.

2. Qatı kopyalamaq üçün [Ctrl+J] düymələrini

sıxın.
3. [Type copy] qatını yaradın.



Şəkil 10-2: Yeni qat

3) Yazı qatının parametrlərini dəyişdirmək
1. [Type] qatını seçin.
2. [Blending Mode]-a gedib [Opacity]-ni “36%” edin.



Şəkil 10-3: Opacity 36%

4) “Type copy” qatının parametrlərini dəyişin.
1. [Type copy] qatını seçin.
2 Blending Mode]-u [Linear Light] edin.
3. [Opacity]-ni “100%” edin.



Şəkil 10-4: Opacity 100%

5) “Type” qatına “Inner Glow” effektinin verilməsi
1. [Type] qatını seçin.
2. [Add a layer Style]-ı klik edin.
3. [Inner Glow] alt menyusunu seçin.



Şəkil 10-5: Add a layer Style

6) [Layer Style] pəncərəsindən [Inner Glow] parametrlərini tənzimləyin.
1. Qarışdırma rejimi: Ekran (Screen)
2. Qeyri-şəffaflıq: 80%
3. Rəng: #F27EA8
4. Mənbə: Mərkəz (Center)
5. Ölçü: 15px
6. Kontur: Xətti (Linear)
7. Aralıq: 50%
8. [OK] düyməsini klik edin.



Şəkil 10-6: Daxili parıltı

7) [Layer Style] pəncərəsindən [Xarici parıltı] parametrlərini tənzimləyin.
1. Qarışdırma rejimi: Linear Light (Xətti işıq)
2. Qeyri-şəffaflıq: 57%
3. Rəng : # EF4889
4. Yayılma: 21%
5. Ölçü: 76px
6. Kontur: Linear
7. Aralıq: 50%
8. [OK] düyməsini klik edin.



Şəkil 10-7: Xarici parıltı

8) Mətnə yayılma şəklində işıq effektinin tətbiq olunması



Şəkil 10-8: Xarici parıltı

2. Ellips aləti ilə simvolun çəkiləsi
1. Bələdçi xəttinin çəkilməsi
2. [Ellipse] aləti ilə ovalı geniş formada sağa və sol tərəfə çəkin.
3. Kopyalanmış obyekti sol tərəfə köçürün.



Şəkil 10-9: Bevel Emboss submenu

3. Pathfinder-in icra edilməsi
1) Pathfinder palitrasının aktivləşdirilməai
1. [Window> Pathfinder]-ə gedin.
2. Obyekti seçin
• Fiqur rejimi

2) Şəkili aydın şəkildə yerləşdirin.
1. [Object> Expand> Appearance]-ə gedin.
2. Faylı 'Make a funny symbol mark' kimi yadd-aşa verin.

3) [Layers] panelindən Bevel Emboss parametrlərinin tənzimlənməsi

1. [Layers] panelindən [type copy] qatını seçin.
2. [Add a layer Style] düyməsini klik edin.
3. [Bevel Emboss]-a gedin.

Şəkil 10-10: Daxili əyri parametrləri

4) [Layer Style] pəncərəsində [Inner Bevel]-i tənzimləyin.

1. Stil: Daxili əyri (Inner Bevel)
2. Dərinlik: 100%
3. İstiqamət: Yuxarı (Up)
4. Ölçü: 10px
5. Bucaq: 0°
6. Hündürlük: 85
7. Parlaq kontur: Xətti (Linear)
8. Vurğulama rejimi: Xətti işıq (Linear Light)
9. Qeyri-şəffaflıq: 100%
10. Kölgə rejimi: Artan (Multiply)
11. Qeyri-şəffaflıq: 50%



Şəkil 10-11: Kontur parametrləri

5) [Layer Style] dialoq pəncərəsində [Bevel Emboss]-un sol siyahısından [Contour]-u tənzimləyin.

1. [Contour]-u yoxlayın.
2. Kontur: Yarım dairə



Şəkil 10-12: Daxili parıltı parametrləri



Yarım dairə kontur

6) [Layer Style] pəncərəsində [Inner Glow]-un tənzimlənməsi.

1. [Inner Glow]-u yoxlayın.
2. Qarışdırma rejimi: Xətti işıq (Linear Light)



Şəkil 10-13: Daxili parıltı parametrləri

3 Qeyri-şəffaflıq: 59%
4. Rəng: #F9C4DB
5. Mənbə: Mərkəz (Center)
6. Ölçü: 11px
7. Kontur: Yuvarlaq addımlar (Rounded Steps)
8. Aralıq: 50%

137ow]-nun tənzimənməsi
1. [Drop Shadow]-nu klik edin.
2. Qarışdırma rejimi: Artan (Multiply)
3. Qeyri-şəffaflıq: 79%
4. Bucaq: 21°
5. Ümumi işıqdan istifadə: Yoxlayın (Check IN)
6. Məsafə: 8px
• Yayılma: 0%
Ölçü: 15px
7. Kontur: Xətti (Linear)
8. [OK] düyməsini klik edin.

8) Mətn obyektinə neon işarə effektinin tətbiq olunması
1. Faylı [BKHouse.psd] kimi yaddaşa verin.
• [Ctrl + S] düyməsini sıxın.

4. Sement divarı kimi arxa fonun hazırlanması

1) Yeni iş lövhəsinin yaradılması
1. İş lövhəsi parametlərini tənzimləyin.
• Ad: Ai 10
• Ölçü: A4
• Orientasiya: Şaquli
• Rəng rejimi: CMYK
• Pikselləşdirmə effektləri: Yüksək (300ppi)
2. [Create Document] düyməsini klik edin.
2) 10% ölçü kiçiltmədə Banner çərçivəsinin hazırlanması
1. [Rectangle Tool: M]-i seçin.
2. [Rectangle] obyektini çəkin.
• En: 60mm
• Hündürlük: 180mm

Şəkil 10-14: Neon işarə effekti



Şəkil 10-15: Yeni sənəd



Şəkil 10-16: Banner çərçivəsi



Şəkil 10-17: Şəbəkə

3. [OK] düyməsini klik edin.
4. Rəngi dəyişin:
• C0%, M0%, Y0%, K100%

3) Düzbucaqlıya şəbəkə effekti vermək
1. [Selection Tool: V]-ni seçin.
2. Düzbucaqlı obyektini seçin.
3. [Effect] menyusuna gedin.
• [Sketch]-[Reticulation]-a gedin.



Şəkil 10-18: Şəbəkə parametrləri

4) [Reticulation] dialoq qutusunda parametrlərin tənzimlənməsi
1. [Reticulation] sseçimlərini aşağıdakı kimi təyin edin:
• Sıxlıq: 16
• Ön plan səviyyəsi: 50
• Arxa fon səviyyəsi: 31
2. [OK] düyməsini klik edin.



Şəkil 10-19: Kraklür



Şəkil 10-20: Teksturaların növü

5) Düzbucaqlıya [Reticulation] effektinin verilməsi
1. [Selection Tool: V]-ni seçin.
2. Düzbucaqlı obyektini seçin.
3. [Effect]-ə gedin.
• [Texture]-[Craquelure]-ə gedin.



Şəkil 10-21: Kraklür parametrləri

Kraklür effekti (Divarabənzər)

6) [Craquelure] dialoq qutusunda parametrləri tənzimləmək
1. [Craquelure] parametrlərini aşağıdakı kimi təyin edin:
• Çat boşluğu: 100



Şəkil 10-22: Barelyef

• Çat dərinliyi: 4
• Çat parlaqlığı: 10
2. [OK] düyməsini klik edin.

7) Düzbucaqlı obyektinə [Bas Relief] vermək
1. [Selection Tool: V]-ni klik edin.
2. Düzbucaqlı obyektini seçin.
3. [Effect] menyusuna gedin
• [Sketch]-[Bas Relief]

8) [Bas Relief] dialoq qutusunda parametrlərin tənzimlənməsi
1. [Bas Relief] parametrlərini aşağıdakı kimi təyin edin:
• Detal: 14
• Hamarlılıq: 2
• İşıq: Aşağı (Bottom)
2. [OK] düyməsini klik edin.



Barelyef təsiri (Sementəbənzər qara)

9) Dəyişdirilmiş arxa fonun ilk dəfə sementəbənzər şəkildə düzəldilməsi
1. [Rectangle Tool: M]-i seçin.
2. Düzbucaqlının sol yuxarı nöqtəsinə klik edin.
3. [Rectangle] seçim pəncərəsində (dialoq qutusu) parametrləri aşağıdakı kimi dəyişin:
• En: 60mm
• Hündürlük: 180mm
4. [OK] düyməsini klik edin.
5. [Fill color]-ı aşağıdakı kimi dəyişin:
• C 0%, M 0%, Y 0%, K 100%
• Xətt rəngi: None

10) Düzbucaqlı obyektinin parametrlərinin tənzimlənməsi
1. [Selection Tool: V]-ni seçin.
2. Qara düzbucaqlını seçin
3. Düzbucaqlının yuxarısından [Opacity]-ə
• Qarışdırma rejimi: Artan (Multiply)



Şəkil 10-23: Barelyef parametləri



Şəkil 10-24: Sementəbənzər düzbucaqlı



Şəkil 10-25: Qeyri-şəffaflıq və qarışdırma rejimi

4. Qeyri-şəffaflıq: 85%

※ [Object] vəziyyətində
• Bir və ya birdən çox obyekti ifadə etmək üçün [Effect] və ya [Blend Mode] funksiyalarını istifadə edin.

11) Obyektlər ilə qrup yaratmaq
1. Boş sahədən seçmək üçün bütün obyektləri sürüyün.
2. Obyektləri seçin. (iki obyekt)
3. Ayrılmamaq üçün bir qrup obyekt düzəldin.



Şəkil 10-26: Obyektlərin qruplaşdırılması

5. Müxtəlif teksturaları nümayiş etdirməklə Bannerin dizayn olunması
1) “Place”-i istifadə edərək Photoshop faylının (*.psd) açılması
1. [Shift + Ctrl + P] düymələrini basın.
• [File]-[Place] menyusuna gedin.

2. [Place] seçim pəncərəsində
• Mənbə faylından [BKHouse.psd] faylını alın.
3. [Link]-ə klik işarəsi qoyun.
4. [Place] düyməsini klikləyin.



Şəkil 10-27: Yerləşdirmək parametri

2) Mətnin Photoshopdan alınması
1. Photoshop ilə düzəldilmiş mətnin istədiyiniz yerdə və istədiyiniz ölçüdə yerləşdirilməsi



Şəkil 10-28: Photoshop faylının əlaqələndirilməsi

3) Bannerin məzmununu ardıcıl olaraq yazmaq

1. [Text Tool: T]-ni seçin.
2. Mətni yazın.
• Mətn 1: “DESIGNER WORLD”, 18pt
C 35%, M 86%, Y 0%, K 0%
• Mətn 2: “2020.12.31”, 30pt
C 0%, M 0%, Y 0%, M 0%
• Mətn 3: “BAKU STUDIO 123”, 21pt
C 0%, M 0%, Y 0%, K 0%
• Mətn 4: “+994 12 111 1111”, 18pt
C 38%, M 93%, Y 36%, K 10%
3. Mətn əmrini bitirmək üçün Ctrl düyməsi ilə birgə arxa fonun boş sahəsinə klik edin.
4. Mətn rəngini dəyişdirin.

Şəkil 10-29: Mətnlərin yazılması

4) [Key Object] ilə mətn obyektinin düzülməsi
1. Bütün obyektləri seçin.
2. Arxa fon obyektinə bir daha klik edin.
3. [Key Object]-i aşağıdakı kimi müəyyən edin:
• [Align] panelini seçin.
• [Horizontal Align Center] parametrini tənzimləyin.

Şəkil 10-30: Əsas obyekt

5) Faylı [Include Linked Files] kimi yaddaşa vermək
1. Faylı yaddaşa vermək üçün [Ctrl+S] qısa yol düyməsini klik edin.
2. [Save As] seçim pəncərəsində
• Yaddaşa vermək üçün yer müəyyənləşdiricini təyin edin.
3. Fayl adını müəyyən edin.
4. [Save] düyməsini klik edin.
5. [Illustrator Options] pəncərəsində
• [Include Linked Files]-ni seçin.
※ Qeyd:
Yaddaşa verilmiş fayl sənədi [Link] parametrində yerləşdirilmiş Photoshop şəklini özündə birləşdirir.
6. [OK] düyməsini klik edin.



6

1) 10% kiçildilmiş obyektin real ölçüyə tənzimlənməsi

1. [Ctrl+A] düyməsi ilə bütün obyektləri seçin.
2. [Transform] panelində
• [Proportion Constrain]-ni klik edin.
3. [Width]-ə “600mm” daxil edin.
4. [Enter] düyməsini basın.



2) A4 iş lövhəsinin “600mm x 1800mm” real ölçüsünə tənzimlənməsi

1. [Shift+O] ilə [Artboard Tool]-u seçin.
2. Nəzarət rejimində
• Alt düyməsini basılı saxlayaraq siçanı iş lövhəsi sərhəd qutusunun kənarından çölə doğru sürüyün.
3. V düyməsini sıxaraq tənzimləmələri tamamlayın.

3) Mətni haşiyələmək üçün [Create Outlines]-ın tətbiq edilməsi

1. [Ctrl+A] ilə bütün obyektləri seçin.



Şəkil 10-31: Əlaqələndirilmiş faylların daxil edilməsi.



Şəkil 10-32: Ölçünü real ölçüyə dəyişdirmək

2. Obyektlərə [Create Outlines]-ı tətbiq edin.
• [Shift+Ctrl+O] qısa yol düyməsini istifadə edin.
• [Type]-[Create Outlines]

Şəkil 10-33: İş lövhəsi (600mm x 1800mm)

4) En və hündürlükdə 2 mm haşiyə yaratmaq
1. Arxa fon obyektini klik edin.
2. [Transform] panelində
• Məhdudiyyət nisbətini ləğv edin.
3. Eni və hündürlüyü tənzimləyin.
• En: 602mm
• Hündürlük: 1802mm
4. [Reference Point]-i [Center]-ə tənzim-ləyin.

Şəkil 10-34: Haşiyənin yaradlması

5) Arxa fona [Rasterize] effektinin tətbiq olunması
1. Arxa fon obyektinə və neon işarə şəklinə klik edin.
2. [Object], [Rasterize]-ı seçin.
3. [Rasterize] parametr pəncərəsi göründükdə
• Rəng rejimi: CMYK
• Dəqiqlik: Yüksək (300ppi)
• Arxa fon: Ağ
4. [Options] bölməsində
• [Create Clipping Mask]-ı klik edin.
5. [Ok] düyməsini basın.



Şəkil 10-35: Kəsim ölçüsü

6) Pikselləşdirilmiş şəkilin qaydaya salınması
1. Bir şəkildə pikselləşdirilən bütün obyektəri qaydaya salın.



Şəkil 10-36: Effekti pikselləşdirmə

7) Fayl ilə bağlı xətaları yoxlamaq üçün [Document Info] panelini seçin.
1. [Ctrl+A] ilə bütün obyektləri seçin.
2. [Windows] menyusundan [Document Info] panelini seçin.
3. [Document Info]-nun yuxarı sağ tərəfində Pop-up alt menyusunu seçin.
4. [Objects]-i seçin.
5. Əgər xəta yoxdursa bütün obyektləri seçin.
• [Ctrl+G] ilə qrup yaradın.

(Ümumi rejim) **(Eskiz rejimi)**

Şəkil 10-37: Şəkillərin növləri

8) Şəkli real ölçüdə kəsmək üçün kəsim xəttinin düzəldilməsi
1. [Rectangle Tool: M]-i seçin.
• Arxa fon ekranının boş hissəsinə klik edin.
2. [Rectangle] seçim pəncərəsində
• En: 600mm
• Hündürlük: 1800mm
3. [OK] düyməsini klik edin.
4. [Fill color] və [Line color] üçün None seçin.



Şəkil 10-38: Document Info.

9) Qruplaşdırılmış dizayn və yeni yaradılmış kəsim xəttinin düzülməsi
1. Qruplaşdırılmış dizaynı seçin.
2. Yeni yaradılmış kəsim xəttini seçin.
• Kəsim xəttini [Shift+Click] ilə klikləyin.
3. [Align] panelində
• Seçilmiş obyektə [Horizontal Align Center] və [Vertical Align Center]-i tətbiq edin.
4. [Fill color] və [Line color] üçün None seçin.

10) Faylın [Illustrator EPS] kimi yaddaşa verilməsi

1. İşlənən faylı yaddaşa vermək üçün [Shift+Ctrl S] düymələrini sıxın.
2. Yaddaşa vermək üçün [Locator]-ı təyin edin.
3. əkilə uyğun [File Name] yazın.
4. [File Format]-ı “Illustrator EPS” kimi təyin edin.
5. [Save] düyməsini klik edin.
6. [EPS Parametrləri] dialoq qutusunda variantları “10 EPS-dən daha aşağı” kimi tənzimləyin.
7. [OK] düyməsini klik edin.



Şəkil 10-39: Həqiqi kəsim xəttinin müəyyən edilməsi



Şəkil 10-40: Obyektlərin düzülməsi



Şəkil 10-41: Illustrator EPS kimi yaddaşa vermək

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Transformasiya alətini aydın şəkildə izah etdi? 2. Canlı tekstura ilə mükəmməl şəkildə banner yaratdı? 3. Obyekt üçün dəqiq şəkildə effekt menyusunun növlərini tətbiq etdi? 4. Görünüş panelində aydın şəkildə effekti sildi? 5. Qat (Layer) stil dialoq qutusunda xarici parıltı (Xarici parıltı) parametrini tətbiq etdi? 6. Qatlardan "Bevel Emboss" parametrini dəqiq şəkildə tətbiq etdi? 7. Arxa fon rəngini aydın şəkildə digər rəngə dəyişdirdi? 8. Mətn xəttinə düzgün şəkildə rəng təyin etdi? 9. Arxa fona pikselləşdirmə effektini verdi? 10. Tamamlanmış banneri Illustrator EPS faylı kimi yaddaşa verdi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

Sərişdə əsaslı modul

İKT

Premiere



Ön söz

“Adobe Premiere Pro” Adobe Systems tərəfindən yaradılan və Adobe Creative Cloud lisenziyalaşdırma proqramının bir hissəsi kimi dərc edilən video redaktə proqramıdır. 2003-cü ildə yaradılan “Adobe Premiere Pro” Adobe Premiere-in (1991-ci ildə yaradılıb) davamçısıdır.
Bu proqram peşəkar videoların redaktə edilməsinə yönəlib, “Adobe Premiere Elements” isə müştəri bazarını hədəfləyir.

CNN Adobe Premiere-in ilk tətbiqedicisidir. BBC departamentləri Premiere-i ilk dəfə 2007-ci ildə qəbul ediblər. Bu proqram “Deadpool”, “Gone Girl”, “Captain Abu Raed”, “Monsters” kimi filmləri və “Maddonun Etiraflar Turu” bədii filmini redaktə etmək üçün istifadə edilib.
Premiere Pro həm RGB, həm də Yuvda kanal rəngi üzrə 32 bitə qədər (10,240×8,192) yüksək səviyyəli görüntü imkanı üçün video redaktəni dəstəkləyir.

Səs nümunə səviyyəli redaktə, VST audio plug-in dəstəyi və çevrəsəl səs düzəni mövcuddur. Premiere Pro-nun plug-in arxitekturası MacOS və Windowsda video və audio fayl formatlarını dəstəkləyən QuickTime və ya DirectShow tərəfindən dəstəklənən formatlardan əlavə digər formatları da idxal və ixrac edir. Adobe Premiere “Cineform's Neo” ilə istifadə zamanı sol və sağ göz tənzimləmələrini edərkən 2D monitorları istifadə edərək 3D redaktəni dəstəkləyir.

Professional bazarı hədəfləyən Premiere Pro-nun multikamera redaktoru, vaxtın təkrarlanması, əhatə dairəsi, qabaqcıl rəng düzəldici alətlər və qabaqcıl audio mikser interfeysi də daxil olmaqla Premiere Elements üzərində üstünlükləri var.

Bundan başqa Premiere Pro daha detallı DVD and Blu-ray Disc yazarlıq seçimi ilə diskə birbaşa qeyd üçün OnLocation seçiminə sahibdir. Qeyd edək ki, Encore-un buraxılması “Adobe Creative Cloud” tərəfindən dayandırılıb.

Bu modulun əsas fərqləndirici xüsusiyyəti piktorial sistemi qəbul etməsidir. Bu modul dərsliyinin konsepsiyası içərisində rəqəmlər yazılan cümlələrdən daha vacib rol oynayır.

Texniki təhsilə/təlimə bağlı olaraq tələbələr sözlərdən daha çox rəqəmlər ilə texniki məzmunu daha aydın başa düşür. Faktiki olaraq söz rəqəmin performansını izah etmək üçün dəstəkləyici vasitədir.

Yekun olaraq mən çoxsaylı mənbələrə, xüsusilə YouTube, Yahoo, Wikipedia, “www.gilbut.co.kr”, “www.hyejiwon.co.kr” və Google saytlarına təşəkkür edirəm. Onlar mənə texniki təcrübə modulu dərsliyinin hazırlanmasında köməklik etdilər.

YUN, Hyung Soon, IKT üzrə Texniki Ekspert


Program: Sequence 01
00:00:00:18
Fit
1/2
00:00:05:29
Program: Pr 01_Rotation_03
00;00;01;09
Fit
1/2
00;00;04;29

1. Kiçik nöqtə ilə nöqtə loqosu növünün hazırlanması

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*

1. Premiere alətinin komponentlərini əminliklə izah edəcək;
2. Müxtəlif yollarla hərəkətli animasiya düzəltməyi biləcək.

Təcrübə materialları:

1. Stolüstü kompüter/Noutbuk
2. Qaynaq fayl
3. Media tədrisə dəstək vasitələri

Avadanlıqlar və alətlər:

1. Kompüter və periferiyalar
2. İllüstrator proqramı
3. Dərslik & Dizayn məlumat kitabı
4. Proyektor

Mövzu ilə əlaqəli biliklər

1. Premiere proqramının ekran elementləri



Şəkil 1-1: Ekran elementləri

○,1 Menyu: 8 əmrdən ibarətdir.
○,2 Panel menyusunun növləri: Panel Menyularının növlərindən ibarətdir.
○,3 Audio klip qarışdırma paneli: Nəzarətlər
○,4 Mənbə paneli: Audio, video və s. toplayır.
○,5 Layihə paneli: Mənbəyə nəzarət edir. Şəkil redaktəsi və onların göstərilməsi üçün qaynaq və elementə nəzarət edir.
○,6 Alətlər paneli:
○,7 Proqram monitor paneli:
○,8 Timeline paneli:
○,9 Audio meter paneli:
○,10 Effektlər paneli:
○,11 Başlıq xüsusiyyətləri paneli:

2. Layihə paneli (Project Panel)

2.1 Layihə paneli görünüşlərinin dəyişilməsi

1) İstifadəçi aktivi əldə etdikdən sonra onun adı proyekt panelində görünür.

• Layihə paneli istifadənin layihəsi haqqında, hər bir aktiv haqqında detallı məlumatı sıyahılaşdırır.

• İstifadəçi aktivləri List view və ya Icon view-da çeşidləyə və görüntüləyə bilir.

• List view hər bir aktiv haqqında əlavə məlumatlar nümayiş etdirir.

• İstifadəçi layihənin ehtiyaclarını qarşılamaq üçün göstərdiyi məlumatları fərdiləşdirə bilər.



Şəkil 1-2: Layihə paneli seçimləri

A. List view B. Zoom slider C. Automate to sequence D. Find E. New Bin F. New item G. Clear

2.2 Layihə panelinin əsas şərtləri

1) Bir görünüşdən digərinə keçmək üçün List View düyməsini və ya panelin aşağısından Icon View düyməsini klik edin. Alternativ olaraq View>List və ya Project Panel menyusundan View>Icon-u klik edin.



Şəkil 1-2: Layihə panelinin əsas elementləri

A. List view B. Zoom slider C. Automate to sequence D. Find E. New Bin F. New item G. Clear H. Icon view I. Clip used in a sequence J. Clip contains both audio and video K. Playhead for scrubbing the thumbnail

3. Timeline panel funksiyası

3.1 Timeline animasiya iş axışı

1) Timeline rejimində qat (layer) məzmununu animasiya etmək üçün

• İstifadəçi Timeline panelində əsas çərçivəni yaradır və cari vaxt indikatorunu digər fərqli vaxt çərçivəsinə dəyişir. Daha sonra istifadəçi qatın yerləşmə mövqeyini, qeyri-şəffaflığını və ya stilini dəyişir.

• Photoshop avtomatik olaraq iki çərçivə arasındakı bir sıra çərçivəni əlavə edir və dəyişdirir. Hərəkət və ya transformasiya görünüşü yaratmaq üçün yeni çərçivələr arasında qat xüsusiyyətlərini (yerləşmə mövqeyi, qat xüsusiyyətləri və qeyri-şəffaflıq) dəyişdirin.

2) Misal üçün, əgər hər hansı bir qatı qaraltmaq istəyirsinizsə qeyri-şəffaflığı başlanğıc çərçivədə 100% olaraq qurun və qat üçün xronometri klik edin.

• Cari vaxt indikatorunu vaxt/çərçivəyə dəyişin və qeyri-şəffaflığı eyni qat üçün 0% qurun.

• Photoshop avtomatik olaraq başlanğıc və son çərçivələr arasında çərçivələri interpolasiya edir və qatın qeyri-şəffaflığı yeni çərçivələrə bərabər azaldılır.

3) Photoshop-un animasiyadakı çərçivələrə interpolasiya etməsinə icazə verməklə yanaşı istifadəçi boş video qatında əllə çəkilmiş animasiya da yarada bilər.

※ Qeyd:

Əgər SWF format animasiyası yaratmaq istəyirsinizsə Adobe Flash, Adobe After Effects və ya Adobe Illustrator istifadə edin.

3.2 Timeline əsaslı animasiya yaratmaq üçün aşağıdakı ümumi qayları istifadə edin.

1) Yeni sənəd yaradın.

1. Ölçü və arxa fon məzmunlarını müəyyənləşdirin.

• Ölçülərin və Piksel aspekt əmsalının istifadəçi animasiyasına uyğun olduğundan əmin olun.

• Rəng rejimi RGB olmalıdır.

• İstifadəçinin dəyişiklik etmək üçün xüsusi səbəbi olmadıqda düzbucaqlıda dəqiqliyi 72 piksel/inch, dərinliyi 8 bpc edin.

2. Timeline panelinin açıq olduğundan əmin olun.

• Əgər lazımdırsa aşağı düşən oxu panelin ortasına klik edin və menyudan Create Video Timeline-nı seçin.

• Sonra oxun solundakı düyməni klik edin.

• Əgər Timeline paneli çərçivə animasiya rejimindədirsə, panelin aşağı sol küncündə Convert To Video Timeline ikonunu klik edin.

2) Panel menyusunda Timeline Frame Rate funksiyasını seçin.

1. Müddət və çərçivə dərəcəsini müəyyənləşdirin.

3) Qat əlavə edin.

1. Arxa fon qatları animasiya oluna bilməz.

2. Əgər istifadəçi məzmunu animasiya etmək istəyirsə ya arxa fon qatını normal qata dəyişməli, ya da aşağıdakılardan birini əlavə etməlidir:

• Əlavə olunan məzmun üçün yeni qat

• Video məzmunu əlavə etmək üçün yeni video qatı

• Məzmunu kopyalamaq və ya əllə çəkilmiş animasiyalar formalaşdırmaq üçün yeni boş video qatı

4) Qata məzmun əlavə edin.

5) Qat örtüyü yaratmaq (istəyə bağlı olaraq)

1. Qat örtüyü qatın məzmununun bir hissəsini aşkar etmək üçün istifadə edilə bilər.

• İstifadəçi qatın məzmununun müxtəlif hissələrini müəyyən etmək üçün qat örtüyünü animasiya edə və ya canlandıra bilər.

6) Cari vaxt göstəricisini ilk əsas çərçivəni qurmaq istədiyiniz yerə köçürün.

7) Qat xüsusiyyətləri üçün əsas çərçivələməni (keyframing) aktiv edin.

1. Qat adının qarşısındakı üçbucağı klik edin.

• Aşağı işarəedicisi olan üçbucaq qat xüsusiyyətlərini nümayiş etdirir.

2. Sonra istifadəçinin canlandırmaq istədiyi qat xüsusiyyətləri üçün xronometri klik edərək ilk əsas çərçivəni qurun.

• İstifadəçi, eyni zamanda birdən çox qat xüsusiyyətləri üçün əsas çərçivəni qurur.

8) Cari vaxt göstəricisini köçürün və qat xüsusiyyətlərini dəyişin.

1. Cari vaxt göstəricisini qat xüsusiyyətlərinin dəyişdiyi çərçivəyə köçürün.

2. İstifadəçi aşağıdakılardan birini və ya bir neçəsini edə bilər:

• Qat məzmununun yerini dəyişmək üçün qatın yerləşmə mövqeyini dəyişin.

• Məzmunun qaralması və ya işıqlanması üçün qatın qeyri-şəffaflığını dəyişin.

• Qatın müxtəlif hissələrini müəyyən etmək üçün qat örtüyünün yerləşmə mövqeyini dəyişin.

• Qat maskasını açın və bağlayın.

3. Obyekt rənginin dəyişdirilməsi, çərçivədə məzmunun tamamilə dəyişdirilməsi kimi animasiyanın bəzi növləri üçün istifadəçinin yeni məzmun ilə əlavə qatlar yaratmasına ehtiyac yaranır.

※ Qeyd:

Fiqurları canlandırmaq üçün istifadəçi Vector Mask Position və ya Vector Mask Enable xronometri istifadə edərək fiqur qatına əlavə olaraq vektor qatını canlandırır.

9) Məzmun ilə başqa qatlar əlavə edin və onların qat xüsusiyyətlərini ehtiyac olan şəkildə redaktə edin.

10) Qatın animasiyada nə zaman görünəcəyini müəyyən etmək üçün qat müddəti sətrini nizamlayın.

11) Animasiyaya öncədən baxış

1. Animasiyaları hərəkət etdirmək üçün Timeline panelində nəzarətləri istifadə edin.

• İstifadəçi veb brazuerində animasiyaya öncədən baxış edin.

• İstifadəçi həmçinin animasiyaya Save For Web dialoq qutusunda öncədən baxa bilər.

12) Animasiyanın yaddaşa verilməsi

1. İstifadəçi animasiyanı Save for Web əmrini istifadə edərək canlandırılmış GIF kimi və ya Render Video əmrini istifadə edərək şəkil sıralaması kimi yaddaşa verə bilər.

2. İstifadəçi onu həmçinin Adobe After Effects-ə import olunan PSD format kimi də yaddaşa verə bilər.

4. Effekt nəzarətləri panelinin tənzimlənməsi

4.1 Hərəkət effektinin nəzarət sseçimləri

• Effekt nəzarətləri paneli yerləşmə, ölçü, qeyri-şəffaflıq və s. kimi video klipin əsas effektlərini tənzimləyir.

1. Yerləşmə: Piksel vahidində hündürlük və enə nəzarət edir.

2. Şkala və ya ölçü: Faiz vahidində video ölçüsünə nəzarət edir.

3. Birnövlü ölçü: İşarəyə (ikon) nəzarət etsəniz genişlik və hündürlük ölçüsünü fərqli olaraq təyin edə bilərsiniz.

4. Fırlatma və ya çevirmə: Videoları fırladan zaman vahid [rotation number□rotation angle] ilə işarə olunur.

5. Künc nöqtəsi: Videonun mərkəz oxunu tənzimləyir. [Program Monitor panel]-dən bucaq nöqtəsini yoxlamaq üçün monitora klik edin.

6. Titrəməyə qarşı filtr: Videonun titrəyən görüntüsü olduqda '0~1' aralığını silərək effekti təyin edin.

4.2 Qeyri-şəffaflıq sseçimlərini bilmək

• Qeyri şəffaflıq və qarışdırma rejimlərində (Opacity and Blend mode) görünüşün başlanğıcını və son səhnə dəyişimini ifadə etmək mümkündür.

• Qarışdırma rejimi (Blend mode) ilə istifadəçi bir çox şəkili üst-üstə qoyaraq müxtəlif görüntü rejimləri yaradır.

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Şagirdin masasını təmiz saxlayın.
2. Kompüterin enerji təchizatına və periferiyalara toxunmayın.
3. Dərsdən sonra kompüterə bağlı olan bütün naqilləri cərəyandan ayırın.

Təcrübə mərhələləri

1. Hərəkətli şəkil düzəltmək

1) Yeni layihə yaradılması

1. [Project] paneli boşluğunda iki dəfə klik edin.

• Əsas menyu sətrindən [Ctrl+I], [File]-[Import]-a gedin.

2. İşləmək üçün mənbə faylından faylı seçin.

• Faylı import edin: 'basketball.png'

3. [Ctrl+N] düymələrini basın və ya

• Basketbol şəkli üzərində siçanın sağ düyməsini klik edərək yeni seçim ikonunu seçin.

4. [Sequence…] seçiminə gedin.

2.) Sequence] sseçımlərinin tənzimlənməsi

1. [Settings]-i seçin.
2. [Settings] seçimlər pəncərəsində

• Redaktə rejimi: Custom



Şəkil 1-3: Yeni layihə

• Timebase: 30.00frames/second
• Çərçivə ölçüsü: 1920/1080
• Piksel ölçüsü: Square Pixels (1.0)
• Sequence Adı: Position_01
3. [OK] düyməsini klik edin.



Şəkil 1-4: Sequence (Sıralama) parametrləri

3) ‘basketball.png’ elementini şəkildəki kimi sürüyün.
1. ‘Project’ panelində daxil edilmiş ‘basketball.png’-ni klik edin.
2. [Timeline] panelinin ‘V1’ sətrinə elementi sürüyün.



Şəkil 1-5: Elementin sürünməsi

4) ‘Effect Controls’ panelində [Scale]-i tənzimləyin.
1. ‘Timeline’ panelindən ‘basketball.png’-ni seçin.
2. [Effect Controls] panelində şkalanı ‘15’ edin.
• [Effect Controls]-[Scale]



Şəkil 1-6: Şkala (Scale Option) parametrlərinin tənzimlənməsi

5) ‘Program Sequence 01 Panel-01’-ın yuxarı sol küncündə obyekti hərəkət etdirin.
1. [00;00;00;00 yerləşməsində ‘Toggle animation’ ikonunu aktivləşdirin.
• [Effect Controls]-[Motion]-[Position]
2. [Position]-ı ‘150/215’-ə qurun.

6) ‘Timeline View’-da avtomatlaşdırılmış əsas çərçivəni düzəldin.
1. Cari vaxt indikatorunu [00;00;02;00]-ə tənzimləyin.
2. [Position] seçimini ‘1750/240’ edin.
• ‘Timeline View’ menyusunda avtomatlaşdırılmış əsas çərçivəni (Automate Keyframe) düzəldin.
3. [Program Monitor] panelində şəkilin yerləşmə yerini yoxlayın.



Şəkil 1-7: Yerləşmə mövqeyi seçiminin tənzimlənməsi

7) Cari vaxt indikatorunun köçürülməsi
1. Cari vaxt indikatorunu [00;00;01;00]-a qurun.
2. [Position] seçimini‘1000/960’ edin.
3. [Program Monitor] panelində şəkilin yerləşmə yerini yoxlayın.



Şəkil 1-8: İkinci yerləşmə mövqeyinin tənzimlənməsi

8) ‘Program Monitor’ panelində ‘Motion’ (hərəkət) keçidinin yoxlanması
1. [Effect Controls] panelində [Motion] seçimini klik edin.



Şəkil 1-9: Üçüncü yerləşmə mövqeyinin tənzimlənməsi

2. Qatın düzgün olmayan hərəkətini yoxlayın.
• Başlanğıc və sonda əsas çərçivəyə Bezier əyrisi tətbiq edin.

9) ‘Spatial Interpolation’-dan ‘Linear’ funksiyasının işlədilməsi
1. Shift düyməsini basılı saxlayaraq birinci və üçüncü əsas çərçivəni seçin.
2. Üzərində siçanın sağ düyməsini klik edin.

• [Spatial Interpolation]-[Linear]-ə gedin.

3. [Linear]-ı klik edin.

10) Hər ikisinin təbii olub-olmadığını yoxlamaq üçün ‘Program Monitor’ panelində başlanğıc və son nöqtəni yoxlayın.
1. [Program Monitor] panelində Bezier əyrisini redaktə edin.
• Parabolik keçidi daha gözəl şəkildə çəkmək üçün Bezier tutacağını genişləndirin.
2. Enter düyməsini basaraq ‘Rendering’-i işlədin.
3. Spacebar düyməsini sıra ilə basaraq ‘Preview’-nu (öncədən baxış) işlədin.



Şəkil 1-9: Motion (hərəkət) keçidi



Şəkil 1-10: Linea rfunksiyasının işlədilməsi

2. Ölçünü dəyişmək üçün animasiya düzəltmək

1) ‘Scale Effects’-in (Şkala effektləri) parametrlərini tənzimləyərək şəkil ölçüsünə nəzarət edin.
• [% unit] ilə video ölçüsünə nəzarət edin.
• Şəkil ölçüsünü dəyişin.
• ‘Zoom In/Out’ effektini istifadə edin.
• Şəkil ölçüsünü sağa, sola, yuxarı və aşağı genişləndirin və kiçildin.
1. Şkala hündürlüyü (Scale Height): Şəkilin yuxarı və aşağı ölçüsünə nəzarət edir.
2. Şkala eni: Şəkilin sağ və sol ölçüsünə nəzarət edir.
3. Vahid şkala: Element incələndikdə şəkilin sağ və sol ölçüsünə birlikdə nəzarət etmək mümkündür.



Şəkil 1-11: Animasiyanın hərəkət etdirilməsi

2) Yeni layihənin yaradılması
1. [Project] panelinin sahəsində iki dəfə klik

edin.
• Əsas menyu sətrindən [Ctrl+I], [File]-[Import]-a gedin.
2. Mənbə qovluğundan faylı seçin.
• Faylı import edin: ‘ballon.png’
3. [Ctrl+N] düyməsini sıxın və ya
• Top şəkli üzərində siçanın sağ düyməsini klik edərək ‘New Item’ ikonunu seçin.
4. [Sequence…] seçimini işlədin.

Şəkil 1-12: Şkala (Scale) sseçimləri



Şəkil 1-13: Yeni layihə

3. [Sequence] seçiminin tənzimlənməsi
1. [Settings]-i seçin.
2. [Settings] seçimlər pəncərəsində
• Redaktə rejimi (Editing Mode): Custom
• Timebase: 30.00frames/second
• Çərçivə ölçüsü (Frame Size): 1920/1080
• Piksel Aspekt əmsalı (Pixel Aspect Ratio): Square Pixels (1.0)
3. Sıralama adı (Sequence Name): Position_01
4. [OK] düyməsini klik edin.



Şəkil 1-14: Sıralama (Sequence) Sseçimləri

4) ‘ballon.png’-ni Timeline mərkəzinə sürüyün.
1. ‘Project’ panelində daxil edilmiş ‘ballon.png’ elementini klik edin.
